**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN RESPUBLİKASINDA YERLİ ÖZÜNÜİDARƏ VƏ DÖVLƏT HAKİMİYYƏTİ ORQANLARININ QARŞILIQLI FƏALİYYƏTİNİN KONSTİTUSİON-HÜQUQİ TƏNZİMLƏNMƏSİ

İxtisas: 5607.01 – “Konstitusiya hüququ; bələdiyyə hüququ”

Elm sahəsi: Hüquq elmləri

İddiaçı: **Sahil Zahir oğlu Hüseynov**

Elmlər doktoru
elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2026**

Dissertasiya işi Milli Aviasiya Akademiyasının "Hüquq" kafedrasında yerinə yetirilmişdir.

Elmi məsləhətçi: Hüquq elmləri doktoru, professor
**Ayxan Xankişi oğlu Rüstəmzadə**

Rəsmi opponentlər: Hüquq elmləri doktoru, dosent
**Fərhad Sahib oğlu Abdullayev**

Hüquq elmləri doktoru, dosent
**Ceyhun Yasinəli oğlu Qaracayev**

Hüquq elmləri doktoru, dosent
**Səidə Bəhram qızı Həsənzadə**

Hüquq elmləri doktoru, professor
**Arif Cəmil oğlu Quliyev**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Milli Aviasiya Akademiyası nəzdində fəaliyyət göstərən ED 2.45 Dissertasiya şurası

Dissertasiya şurasının sədr müavini: ____________ Hüquq elmləri doktoru, professor
**Firuzə Məmməd qızı Abbasova**

Dissertasiya şurasının elmi katibi: ____________ Hüquq üzrə fəlsəfə doktoru, dosent
**Sahil Yaqub oğlu Qasımov**

Elmi seminarın sədri: ____________ Hüquq elmləri doktoru, dosent
**Sübhan Fərmayıl oğlu Əliyev**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Tədqiqat mövzusunun aktuallığı.** 1991-ci ildə dövlət müstəqilliyini bərpa edən Azərbaycan Respublikasının ictimai-siyasi həyatında baş verən hadisələr içərisində yerlərdə hakimiyyətin özünüidarə prinsipləri əsasında təşkili və həyata keçirilməsinə yönəldilən yerli hakimiyyət islahatı mühüm yer tutur. Azərbaycan Respublikası Konstitusiyasının normalarına uyğun olaraq həyata keçirilən bu islahat respublikada xalq hakimiyyətinin yeni formasının - yerli özünüidarənin yaranmasına zəmin yaratdı. 1995-1999-cu illərdə Konstitusiyanın normalarının konkretləşdirilməsi məqsədilə yerli özünüidarə sahəsində ictimai münasibətlərin tənzimlənməsini təmin edən bələdiyyə qanunvericiliyinin əsasları yaradıldı. Bu münasibətlərin hüquqi bazasını təşkil edən normalar Konstitusiya ilə yanaşı, "Yerli özünüidarə haqqında" Avropa Xartiyası (Strasburq, 1985) ilə təsbit edildiyinə görə xarici elementli inzibati idarəetmə münasibətləri kimi adlandırılması mümkündür. Beləliklə, Azərbaycan Respublikası bələdiyyə sisteminin yaradılmasını Konstitusiya və qanunlarla təsdiq edərək əsrlər boyu Qərbi Avropada formalaşmış yerli özünüidarə ideologiyasının özünün suveren ərazisində realizə edilməsi üçün təşkilati-hüquqi tədbirlərin həyata keçirilməsinə razılığını ifadə etmişdir.

Qərbi Avropa məkanında yaranmış ideologiyaya əsaslanan idarəetmə konsepsiyasının hər hansı ölkədə (məsələn, Azərbaycan Respublikasında) istifadə edilməsi ilə bağlı problemlər araşdırılarkən bir sıra nəzəri-hüquqi xarakterli məsələlərin aydınlaşdırılmasının zəruriliyi meydana çıxır. 1820-1918-ci illərdə Çar Rusiyasının, 1920-1991-ci illərdə Sovet Rusiyasının qanunları ilə idarə olunmuş Azərbaycan əhalisi 1992-ci ildən başlanan müstəqil inkişaf mərhələsində müasir Avropa idarəçilik modellərinin tətbiqini məqsədəuyğun hesab etdi. Dünyanın bir çox ölkələrində, xüsusilə Şərqi Avropada və postsovet respublikalarında yerli hakimiyyət islahatlarının sürətləndirilməsi və demokratikləşdirilməsi məqsədilə Avropa yerli özünüidarə konsepsiyasının və bu ideyanın məzmununu ifadə edən və beynəlxalq hüquqi qüvvəyə malik olan Avropa Yerli Özünüidarə Xartiyasının tətbiqinə üstünlük verildi. Ona görə də postsovet respublikaları, o cümlədən Azərbaycan Respublikası Avropa Yerli Özünüidarə Xartiyasına qoşulmuş və yerli özünüidarə institutunu özünün daxili qanunları ilə təsbit etmişdir. Lakin, ideologiyanın öz-özlüyündə onu qəbul etmiş ölkənin yerli hakimiyyət sferasında arzuolunan nəticələrin əldə olunması üçün etibarlı

təminatlara malik olmadığını qəbul etmək lazımdır. Qeyd edək ki, yerli özünüidarə ideologiyasının mahiyyətini və strukturunu yaradan elementlərin keyfiyyət xarakteristikalarını qiymətləndirmədən onun real olmasını təsdiq etmək mümkün deyildir. Digər tərəfdən, qəbul edilməlidir ki, yerli hakimiyyət islahatlarının nəticəliliyi özünüidarə ideologiyasının realizəsini təmin edən effektiv hüquq normaları sisteminin yaradılması və tətbiq edilməsindən asılıdır.

Qərbi Avropada yaranan yerli özünüidarə ideologiyasının təsirinin artması Şərqi Avropa ölkələrində olduğu kimi, Azərbaycanda da dövlət və hüquq nəzəriyyəsinin inkişafına və yeni Bələdiyyə hüququ elminin yaranmasına səbəb oldu. Bu ideologiyanın özünə xas olan bəzi ziddiyyətlər bələdiyyə hüququnda hələ də öz həllini tapa bilmir. Yerli əhəmiyyətli məsələlərin həllinin əhalinin özünə həvalə edilməsi, vətəndaşların sosial-iqtisadi və mədəni ehtiyacların təmin edilməsi üçün ictimai işlərin müəyyən hissəsinin nizama salınmasının və idarə edilməsinin mühüm şərtlərinin məcmusu kimi müəyyənləşdirilən yerli özünüidarə ideologiyasının strukturunda utopiya elementlərinin (əhalinin özünün özünə tabe olması və özü tərəfindən idarə olunması) mövcud olması hüquqi ədəbiyyatda birmənalı qarşılanmır.[1] Bələdiyyə hüququnda yerli özünüidarənin “əhalinin özünüidarəetmə hüququ”, “xalqın bir qrupunun öz milli dövlətini yaratmaq hüququ”, “sosial-iqtisadi və ekoloji problemlərin özünüidarəetmənin görünməz əli ilə tənzimlənməsi”nə bənzər mübahisəli məsələlərin yer tutması diqqətdən yayınmır.

Tədqiqat mövzusunun aktuallığının əsaslandırılması üçün “ölkənin bütövlükdə idarə olunması dövlətin funksiyasıdır”, “bələdiyyələrin dövlətin qanunları əsasında təsis edilməsi və yerli əhəmiyyətli məsələlərin həllinin onlara tapşırılması”, “yerlərdə iqtisadi fəaliyyətin təşkilində bələdiyyələrin muxtariyyətliyinin tanınması” kimi başlanğıc müddəalar qəbul edilmişdir. Bu müddəalara uyğun olaraq yerlərdə bələdiyyə seçkilərinin keçirilməsi, bələdiyyələrin yaradılması, nümayəndəli yerli özünüidarə orqanlarının təşkil edilməsi, yerli sosial, iqtisadi inkişaf və ekoloji proqramların hazırlanması və icra olunması, bələdiyyələrin fəaliyyətinin tənzimlənməsi

[1] Xəlilov, Q. Yerli özünüidarəetmə və onun özünütəyinetmə məzmunu: [Elektron resurs] / URL: https://www.elibrary.az/docs/jurnal/jrn2014_649.pdf
Соловьев, С.Г. Мунисипиальная идеология и современное российское законодательство о местном самоуправлении: // С.Г.Соловьев Местное право. – 2015 / №1. с. 21-31

kimi məsələlərin həlli xeyli dərəcədə dövlət hakimiyyəti və yerli özünüidarə orqanlarının birgə fəaliyyəti sayəsində təmin olunur. Bununla belə, etiraf edilməlidir ki, yerli özünüidarə hüququnun ayrı-ayrı aspektləri konstitusiya hüququnda və bələdiyyə hüququnda müzakirə olunsa da, yerli özünüidarənin təşkili və həyata keçirilməsində yerli özünüidarə və dövlət hakimiyyəti orqanlarının qarşılıqlı fəaliyyətinin tənzimlənməsi sahəsində həll edilməsi zəruri olan aşağıdakı problemlərin araşdırılmasına ehtiyac vardır:

1. Azərbaycan Respublikası Konstitusiyasının və qanunlarının yerli özünüidarənin təşkilinə dair normaları ilə "Yerli özünüidarə haqqında" Avropa Xartiyasının normaları arasında fərqlərin aradan qaldırılması;
2. Yaşayış məntəqələrində yerli əhəmiyyətli məsələlərin həlli üzrə səlahiyyətlərin bələdiyyələrə həvalə edilməsi;
3. Yerlərdə dövlət hakimiyyəti orqanlarının səlahiyyət sahəsinin müəyyənləşdirilməsi;
4. "Bələdiyyə mülkiyyətinə əmlakın verilməsi haqqında" Azərbaycan Respublikası Qanununun (7 dekabr 1999-cu il) icrasının təmin olunması;
5. Yerli özünüidarənin inkişafı prosesində yaranan maneələrin konstitusion-hüquqi qiymətləndirilməsi;
6. Yerli özünüidarə xidmətlərinin standartlaşdırılması;
7. Yerli özünüidarənin gələcək inkişafının tənzimlənməsinin konstitusion-hüquqi konstruksiyasının yaradılması.

Yuxarıda göstərilən problemlərin Avropa Yerli Özünüidarə Xartiyasının prinsipləri nəzərə alınmaqla həll edilməsi respublikada nümayəndəli demokratiyanın realizə edilməsi yolu ilə vətəndaşların dövlət işlərinin idarə edilməsində iştirak hüququnun təmin edilməsi üçün zəmin yaradacaq. Lakin qeyd etmək lazımdır ki, bu problemlərin həlli üçün 1999-2003-cü illərdə münbit şərait yaradılsa da, 2004-2024-cü illərdə yerli hakimiyyətin əsaslı surətdə yenilənməsi baş vermədi. Belə ki, Azərbaycan dövlətinin başçısı Heydər Əliyevin rəhbərliyi altında 1999-2003-cü illərdə həyata keçirilən sürətli normayaratma prosesində "Bələdiyyələrin statusu haqqında" (2 iyul 1999-cu il), "Bələdiyyə mülkiyyətinə əmlakın verilməsi haqqında" (7 dekabr 1999-cu il) "Bələdiyyələrin əraziləri və torpaqları haqqında" (7 dekabr 1999-cu il), "Bələdiyyələrin torpaqlarının idarə olunması haqqında" (29 iyun 2001-ci il), "Yerli özünüidarə haqqında" Avropa Xartiyasının təsdiq edilməsi barədə" (25 dekabr 2001-ci il) Azərbaycan Respublikası qanunlarının qəbul edilməsi, "Dövlət əmlakının

bələdiyyələrə verilməsi qaydası və müddətləri haqqında" Əsasnamənin Azərbaycan Respublikası Prezidentinin 11 iyun 2001-ci il tarixli Fərmanı ilə təsdiq edilməsi ilə əhatə olunan hüquqi bazanın yaradılması 2004-2008-ci illərdə Azərbaycan Respublikasında yerli özünüidarə sisteminin Avropa Yerli Özünüidarə Xartiyasının prinsiplərinə uyğunlaşdırılmasına hədəflənirdisə, sadalanan qanunlardan irəli gələn vəzifələr bugünədək icra olunmayıb. 2000-2004-cü illərdə Azərbaycan Respublikasında yerli özünüidarənin təşkili səviyyəsi araşdırılarkən nəzərə almaq lazımdır ki, yerli hakimiyyət səlahiyyətlərinin xeyli hissəsi yerli icra hakimiyyətlərinə, cüzi hissəsi isə bələdiyyələrə həvalə olunmuşdur ki, bu da Avropa Yerli Özünüidarə Xartiyasının 4-cü maddəsinin 4-cü bəndilə təsdiq olunan yerli özünüidarə orqanlarına verilən səlahiyyətlərin tamlıq və müstəsnalıq prinsiplərinə ziddir. Lakin hazırda etiraf etmək lazımdır ki, bələdiyyə quruculuğu sahəsində yaranmış böhranlı vəziyyət "Yerli özünüidarə haqqında" Avropa Xartiyasına uyğun olaraq, Milli Məclisin regional məsələlər daimi Komissiyası tərəfindən "Bələdiyyələrlə yerli icra hakimiyyəti orqanlarının qarşılıqlı fəaliyyəti haqqında" hazırlanmış qanun layihəsinin 2005-ci ildə Milli Məclisin yaz sessiyasında təsdiq edilməsi ilə aradan qaldırılması mümkün ola bilərdi. Qanun layihəsi Milli Məclisdə müzakirə olunmamışdır. Qeyd edək ki, "Bələdiyyələrlə yerli icra hakimiyyəti orqanlarının qarşılıqlı fəaliyyəti haqqında" Qanunun qəbul olunması Azərbaycan Respublikası Avropa Şurasına üzvlüyə qəbul olunarkən götürdüyü öhdəliklərdən biridir. Göstərilən problemin 2005-ci ildən indiki anadək həll edilməməsinin səbəbi araşdırılarkən, Azərbaycan əhalisinin Avropa Yerli Özünüidarə Xartiyasının ideallarının və prinsiplərinin tətbiqinə hazır olmadığını nəzərə almaq lazımdır. Son 24 ildə yerli özünüidarənin yaranması və inkişafı təcrübəsinin doğurduğu qeyri-müəyyən vəziyyət tədqiqat mövzusunun aktuallığını təsdiq edən əsas şərtlərdən biridir.

Yerli özünüidarə ideologiyasının mahiyyətinin aydınlaşdırılmasından başlanan tədqiqat işinin 2000-2025-ci illərdə Azərbaycan Respublikasında yerli özünüidarənin təşkili və həyata keçirilməsi sahəsində dövlət hakimiyyəti və yerli özünüidarə orqanları arasında qarşılıqlı münasibətlərdə mövcud olan problemlərin aşkara çıxarılması və onların həlli istiqamətlərinin əsaslandırılması ilə tamamlanması mövzunun planının əhatə etdiyi bölmələri arasında daxili vəhdəti ifadə edir. Xarici elementli yerli özünüidarə ideologiyasının əsaslandığı ideal konstruksiyaların

Azərbaycan Respublikasında istifadə olunması vəziyyətinin öyrənilməsi üçün yerli özünüidarənin təşkilinə, habelə yerli özünüidarə orqanlarının dövlət hakimiyyəti orqanları ilə qarşılıqlı fəaliyyətinin tənzimlənməsinə beynəlxalq hüquqi yanaşmaların təsirinin nəzərə alınması zəruriliyi yaranmışdır. Azərbaycanda yerli özünüidarənin Avropa Xartiyasının prinsiplərinə uyğunluğunun qiymətləndirilməsi problemlərinin tədqiqi Azərbaycan Respublikasında yerli özünüidarənin təşkili sisteminin Avropa Yerli Özünüidarə Xartiyasının mövqeyindən təkmilləşdirilməsi və Avropa Yerli Özünüidarə Xartiyasının Azərbaycanın mövqeyindən təkmilləşdirilməsi istiqamətində təklif və tövsiyyələrin işlənilməsinin məqsədəuyğunluğunu ortaya qoyur.

Azərbaycan Respublikasında yerli özünüidarəetmə sisteminin fəaliyyətinin konstitusion-hüquqi qiymətləndirilməsi yolu ilə aşkar edilən nöqsanların aradan qaldırılması və yerli özünüidarənin inkişafı perspektivinin və prioritetlərinin müəyyənləşdirilməsi üçün bələdiyyə xidmətlərinin İSO 9001: 2015 əsasında standartlaşdırılması və Forsayt metodologiyasına əsaslanan yol xəritəsi metodunun tətbiqinin nəzəri işlənilməsi zəruriliyi etiraf edilir. Tədqiqat mövzusunun aktuallığı onunla şərtləndirilir ki, Azərbaycan Respublikasında yerli hakimiyyətin yenidən təşkili, demokratiya və hakimiyyətin əks-mərkəzləşməsi prinsiplərinə əsaslanan yerli özünüidarə sisteminin yaradılması, dövlət hakimiyyəti və yerli özünüidarə orqanları arasında qarşılıqlı fəaliyyətin tənzimlənməsi ilə bağlı problemlərin konstitusion-hüquqi meyarlara uyğun həll edilməsini əhatə edir. Bələdiyyə səviyyəsində dövlət hakimiyyəti orqanları ilə yerli özünüidarə orqanları arasında münasibətlərin tənzimlənməsi problemləri üzrə bütöv konstitusion-hüquqi tədqiqatların aparılmaması mövzunun problematik xarakter daşıdığını təsdiq edir. İfadə olunanların ümumiləşdirilməsi dissertasiya tədqiqatı üçün seçilmiş mövzunun nəzəri-hüquqi və hüquq tətbiqi aspektlərdə aktuallığını ifadə edir.

**Mövzunun işlənilmə dərəcəsi.** Yerli özünüidarənin təşkili və həyata keçirilməsi prosesində dövlət hakimiyyəti orqanları və yerli özünüidarə orqanları arasında qarşılıqlı münasibətlərin konstitusion-hüquqi aspektlərinin tədqiqi üzrə aparılmış araşdırmalar dissertasiya mövzusunun ifadə etdiyi problemlərin həlli üçün elmi mənbə rolunu oynamışdır. Hüquqi tədqiqat işlərində, bir qayda olaraq, yerli özünüidarənin ümumi anlayışı və prinsipləri, funksiyaları, təşkilati-hüquqi formaları, yerli özünüidarə orqanlarının səlahiyyətləri, dövlət hakimiyyəti orqanlarının yerli özünüidarə

orqanları ilə qarşılıqlı fəaliyyətinin hüquqi əsasları nəzərdən keçirilir. Postsovet respublikalarında, o cümlədən Azərbaycan Respublikasında 90-cı illərdə qəbul edilmiş konstitusiyaların yerli özünüidarəyə dair müddəalarının şərhi ilə bağlı məsələlər öz əksini M.V.Baqlayın, İ.M.Cəfərovun, İ.M.Çirkinin, Z.A.Əsgərovun, V.İ.Fadeevin, E.M.Koveşnikovun, E.İ.Kozlovun, O.E.Kutafinin ali məktəblər üçün hazırlanmış "Konstitusiya hüququ" və "Bələdiyyə hüququ" dərsliklərində tapmışdır. Dissertasiyada istinad edilmiş dərsliklərdə yerli özünüidarə hüququnun mahiyyəti, formaları və təşkili əsasları, bələdiyyələrin hüquqları, səlahiyyətləri və funksiyaları, yerli özünüidarə orqanlarının fəaliyyət sahələrinin tənzimlənməsi ilə bağlı məsələlər şərh edilir.

Yerli özünüidarənin beynəlxalq-hüquqi aspektlərinin aydınlaşdırılması, Azərbaycan Respublikasında yerli özünüidarənin Avropa Xartiyasının prinsiplərinə uyğunluğunun qiymətləndirilməsi, dövlət hakimiyyəti orqanlarının yerli özünüidarə orqanları ilə qarşılıqlı fəaliyyətinin tənzimlənməsi problemləri bu və ya digər dərəcədə P.Johnun, D.Krugerin, M.Qoldsmitin, R.Voqelin və başqalarının tədqiqat işlərində, elmi məqalələrində və konfrans tezislərində işıqlandırılmışdır.

Tədqiqatın strukturunu təşkil edən bölmələr üzrə araşdırılan məsələlərin hüquq elmində işlənilməsi səviyyəsi dissertasiyanın mətnində istinad edilmiş mənbələrdə əks olunması ilə müəyyən edilir. Yerli özünüidarə ideologiyası və onun təcrübədə həyata keçirilməsinin hüquqi aspektləri müəyyən dərəcədə İ.Cəfərovun, Z.Əsgərovun, A.Rüstəmzadənin, C.Qaracayevin, S.Əliyevin, Q.Xəlilovun, Ə.Salahzadənin əsərlərində, S.Solovyevin, N.Bovyenin, D.Cadeddunun, B.Çiçinadzenin, Ç.Çolakın, C.Himsvortun, R.İbadovun, J.Yakubek-Lalikin, M.Joviceviçin, C.Xəlilovun, K.Kosslerin, M.Rdvanın, J.Mihalikin, B.Sramelin, T.Rabskanın, K.Rudgenin, İ.Satolanın, A.Standerin, R.Sayedin, G.Siljanovska-Davkovanın, T.Tislaunun və başqalarının elmi məqalələrində işıqlandırılmışdır.

Yerli özünüidarənin təşkilinin nəzəri-hüquqi aspektlərinin beynəlxalq-hüquqi yanaşmalar nəzərə alınmaqla tədqiqinin aparılması üçün Azərbaycan və rus alimləri tərəfindən yazılmış "Konstitusiya hüququ" və "Bələdiyyə hüququ" kitabları ilə yanaşı, Qərb müəlliflərindən T.Brikin, B.Herrmanın, B.Lavrovskinin, B.Brezovnikin, İ.Hoffmanın, Ç.Erlinqsonun, M.Fluitin, D.Horcherin, F.Kamberinin, D.Krygerin, R.Lovenin, V.Marçenkonun,

V.Papçunovanın, B.Perezhniakın, R.Sorensenin, M.Varnerin, V.Lazarevin elmi məqalələrindən istifadə edilmişdir.

Azərbaycan Respublikasında yaradılmış yerli özünüidarə sisteminin konstitusion-hüquqi meyarlara və Avropa Xartiyasının prinsiplərinə uyğunluq səviyyəsinin qiymətləndirilməsi problemləri bu və ya digər dərəcədə N.H.Əliyevin, S.F.Əliyevin, H.S.Qurbanovun, C.Y.Qaracayevin, X.İsmayılovun, Y.Balakişiyevanın, Ş.Hacıyevanın, Ə.Salahzadənin, S.Yusifovun tədqiqat işlərində, İ.Adiputranın, J.Al-Mulkinin, S.Anderssonun, S.Bergin, R.Czachorun, V.Hernesin, O.Jurgilevzin, S.Keybatın, M.Mikayılın, M.Smolniçkanın, N.Lopezin, N.Muminovun, İ.Niderhandın, N.Rasteronun, İ.Toskmanın, K.Rahimbeyovun, A.Szpakın, Y.Sudibyonun, H.Ubelsin, P.Valkamanın, A.Burunun, D.Lyonsun, A.Serbyayevin, N. Yatsenkonun elmi məqalələrində araşdırılmışdır. Azərbaycanın yerli özünüidarə sisteminin Avropa Xartiyasının prinsiplərinə uyğunluğunun qiymətləndirilməsi problemlərinin tədqiqi üçün ən dəyərli elmi mənbələrdən biri kimi Ç.Çolak, A.Yıkıcı tərəfindən təqdim edilmiş "Avropa Yerli özünüidarə kontekstində Türkiyə və Azərbaycanda yerli hökumətlər: ziddiyyətlər və uyğunsuzluqlar" (Khazar Journal of Humanities and Socizl Sciences 2024, 27 (1) p. 56-79) mövzusunda məqalədən istifadə edilmişdir.

Yerli özünüidarə orqanlarının və dövlət hakimiyyəti orqanlarının qarşılıqlı münasibətlərinin tənzimlənməsinin konstitusion-hüquqi problemlərinin tədqiqatının aparılması üçün Y.Babiyin, R.Behinin, A.Darkoçhandın, M.Saviskonun, M.Gulmiranın, X.İsmayılovun, K.Qodinanın, A.Phirtskalaşvilinin, T.Parlyonun, R.Horstun, H. Xanovun, G.Yuniartanın, A.Aliyevin, A.Boteronun, B.Jimenzin, D.Jongun, E.Sasonun, M.Kravetsin, V.Krivoşeyin, A.Kumarın, M.Leon-Moritanın, V.Lobinetsin, M.Singhin, İ.Ritonganın, Ç.Sansonun, V.Hedulianovun, D.Vall-Cruzun, S.Valtolinanın, L.Verhoevenin və başqalarının elmi məqalələrindən istifadə edilmişdir. Dövlət hakimiyyəti orqanları ilə bələdiyyələrin qarşılıqlı münasibətlərinin tənzimlənməsi məsələlərinin öyrənilməsi üçün M.G.Zeynalovun "Dövlət hakimiyyəti orqanları ilə bələdiyyələrin qarşılıqlı əlaqələrinin hüquqi tənzimlənməsi" mövzusuna həsr edilmiş dissertasiya işinin müddəalarından mühüm mənbə kimi istifadə edilmişdir.

Azərbaycan Respublikasının yerli özünüidarə sisteminin gələcək inkişafının konstitusion-hüquqi konstruksiyasının yaradılması istiqamətində

tədqiqatın aparılması üçün alimlərin yerli özünüidarənin təşkili və həyata keçirilməsində mövcud olan nöqsanların qiymətləndirilməsinə dair fikirlərinin nəzərə alınması xüsusi əhəmiyyət kəsb etmişdir. Yerli özünüidarənin inkişafı prosesində yaranan maneələrin hüquqi təhlili ilə bağlı ayrı-ayrı məsələlər N.H.Əliyevin, S.F.Əliyevin, A.A.İmaməliyevin, S.İ.Yusifovun və başqalarının əsərlərində nəzərdə keçirilir. Bələdiyyə xidmətləri üzrə keyfiyyət idarəetmə konstruksiyasının yaradılması üçün İSO 9001: 2015 standartlarının tələbləri nəzərə alınmışdır. Azərbaycanda yerli özünüidarənin inkişafının Yol Xəritəsinin hazırlanması üçün Forsayt metodologiyası ilə bağlı elektron resurslarla işıqlandırılan məlumatlardan istifadə edilmişdir.[2]

Dissertasiya tədqiqatının aparılması üçün elmi mənbə qismində istifadə edilmiş əsərlərin, məqalələrin, tezislərin və elektron resursların sayca çox olmasına baxmayaraq, Azərbaycan Respublikasının yerli özünüidarə sisteminin inkişafını ləngidən maneələrin qarşısının alınması məsələləri özünün nəzəri-praktiki həllini tapmamışdır. Etiraf etmək lazımdır ki, 2000-2024-cü illərdə aparılan çoxşaxəli elmi tədqiqatların yerli özünüidarənin konstitusion potensialının istifadə edilməsinə təsirinin zəifləyi öz ifadəsini yerli özünüidarə və dövlət hakimiyyəti orqanlarının qarşılıqlı fəaliyyətinin tənzimlənməsi sahəsində islahatların aparılmamasında tapır ki, bu da həmin problemin dissertasiya işində hərtərəfli tədqiqinin zəruriliyini ortaya qoyur.

**Tədqiqatın obyektini** yerli özünüidarənin təşkili və həyata keçirilməsi sahəsində dövlət hakimiyyəti və yerli özünüidarə orqanlarının qarşılıqlı fəaliyyətinin konstitusion-hüquqi tənzimlənməsi ilə bağlı yaranan ictimai münasibətlər təşkil edir.

**Tədqiqatın predmeti** yerli özünüidarənin təşkili və həyata keçirilməsi prosesində dövlət hakimiyyəti və yerli özünüidarə orqanları arasında yaranan ictimai münasibətlərin tənzimlənməsini təmin edən hüquq normaları və onların tətbiqi praktikası ilə əhatə olunur.

---

[2] ISO 9001:2015 Beynəlxalq Standart. Keyfiyyəti idarəetmə sistemləri-tələblər [Elektron resurs]: https://www.aqa.az/az/xidmetler/meslehet/standartlar/iso-9001-2015-keyfiyyeti-idareetme-sistemleri-telebler-beynelxalq-standarti/
Foresight Methods: [Electronic resource] // by Rafael Poppers Blog-Mode of access https://rafaelpopper.wordpress.com/foresight-methods/
Methods of Foresight: [Electronic resource] / National Research University "Higher Scool of Economics" – https://unescofutures.hse.ru/en/methods

**Tədqiqatın məqsədi və vəzifələri.** Dissertasiya qarşısında qoyulmuş başlıca məqsəd yerli özünüidarənin gələcək inkişafının konstitusion-hüquqi konstruksiyasının yaradılması kontekstində dövlət hakimiyyəti orqanlarının və yerli özünüidarə orqanlarının qarşılıqlı fəaliyyətinin tənzimlənməsi mexanizminin təkmilləşdirilməsi istiqamətlərinin müəyyənləşdirilməsindən ibarətdir.

Tədqiqatın məqsədinin həyata keçirilməsi üçün qarşıya aşağıdakı vəzifələr qoyulmuşdur:

- yerli özünüidarə ideologiyasının məqsədini və onun həyata keçirilməsinin konstitusion-hüquqi əsaslarını müəyyən etmək;
- yerli özünüidarənin təşkilinin beynəlxalq-hüquqi və nəzəri-hüquqi aspektlərini öyrənmək;
- Azərbaycan Respublikasının yerli özünüidarə sisteminin konstitusion-hüquqi meyarlara və Avropa Yerli Özünüidarə Xartiyasının prinsiplərinə uyğunluğunu qiymətləndirmək;
- yerli özünüidarə orqanlarının və dövlət hakimiyyəti orqanlarının yerli əhəmiyyətli məsələlərin həlli üzrə səlahiyyətlərinin müqayisəli-hüquqi xarakteristikasını müəyyənləşdirmək;
- yerli özünüidarə orqanlarının və dövlət hakimiyyəti orqanlarının qarşılıqlı fəaliyyətinin tənzimlənməsinə beynəlxalq-hüquqi yanaşmaları qiymətləndirmək;
- yerli özünüidarənin inkişafı prosesində yaranan maneələri öyrənmək;
- yerli özünüidarənin standartlaşdırılması və bələdiyyə xidmətləri üzrə keyfiyyət idarəetmə standartının yaradılması problemini həll etmək;
- yerli özünüidarənin inkişafının Yol Xəritəsini işləyib hazırlamaq.

**Tədqiqatın nəzəri əsası.** Tədqiqatın nəzəri əsası yerli özünüidarənin təşkili və həyata keçirilməsi prosesində dövlət hakimiyyəti orqanlarının və bələdiyyələrin qarşılıqlı fəaliyyətinin tənzimlənməsi problemlərinə həsr edilmiş yerli və xarici ölkə müəlliflərinin tədqiqat işlərində, elmi-praktiki konfransların materiallarında, habelə milli bələdiyyə assosiasiyalarının bələdiyyələrə məsləhətlərində əks etdirilən elmi-praktiki əhəmiyyətli müddəalar və nəticələrdir.

**Tədqiqatın metodoloji əsası.** Yerli özünüidarənin təşkili və həyata keçirilməsində dövlət hakimiyyəti və yerli özünüidarə orqanlarının qarşılıqlı fəaliyyətinin tənzimlənməsi ilə bağlı problemlərin həllinə sistemli yanaşmaya əsaslanan Forsayt (Foresight) tədqiqat üslubu dissertasiyanın işlənilməsinin metodoloji əsasıdır. Tədqiqatın metodologiyasının

əsaslandırılması üçün yerli özünüidarə ideologiyasının müddəaları, konstitusiya hüququ və bələdiyyə hüququnun elmi anlayışlarından istifadə edilmişdir.

**Tədqiqatın metodları.** Yerli özünüidarə sahəsində dövlət hakimiyyəti və yerli özünüidarə orqanları arasında münasibətlərin tədqiqində məntiq qaydalarının və autentik interpretasiya metodunun tətbiqi yerli özünüidarənin inkişafını ləngidən maneələrin aşkara çıxarılmasına və qiymətləndirilməsinə imkan verdi. Tədqiqat işində elmi idrakın tarixi, müqayisəli-hüquqi, formal-məntiqi və yol xəritəsi metodları tətbiq edilmişdir.

**Dissertasiya tədqiqatının normativ bazası.** Yerli özünüidarənin təşkili və həyata keçirilməsi ilə bağlı münasibətləri tənzimləyən Azərbaycan Respublikasının Konstitusiyası, "Yerli özünüidarə haqqında" Avropa Xartiyası, "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanunu, prezidentin fərmanları, sərəncamları, Milli Məclisin qərarları, Nazirlər Kabinetinin qərarları, Naxçıvan Muxtar Respublikasının qanunvericiliyi, Ədliyyə Nazirliyinin normativ aktları, Yerli və Regional Hakimiyyətlər Konqresinin tövsiyələri, Avropa Şurası Nazirlər Komitəsinin tövsiyələri, Azərbaycan dövlətinin banisi Heydər Əliyevin və prezident İlham Əliyevin yerli özünüidarə haqqında mülahizələri tədqiqat işinin normativ bazasını təşkil edir.

**Tədqiqatın empirik bazası** inzibati ərazi vahidləri, yaşayış məntəqələri, bələdiyyələrin sayı haqqında statistik məlumatlar, bələdiyyələrin səlahiyyətlərinin, yerli özünüidarə, dövlət hakimiyyəti orqanları və yerli sakinlər arasında qarşılıqlı təsirlərin, yerli özünüidarə orqanlarının səlahiyyətlərinin həyata keçirilməsinin əsasında duran prinsiplərin, "Yerli özünüidarə haqqında" Avropa Xartiyasının həyata keçirilməsində yaranan çətinliklərin statistik qruplaşdırmalar yolu ilə tərtib edilmiş təsnifatlardan ibarətdir.

**Elmi yenilik və müdafiəyə çıxarılan müddəalar.** Dissertasiya işinin elmi yeniliyi yerli özünüidarə sisteminin kritik qiymətləndirilməsi və onun təşkilinə beynəlxalq-hüquqi yanaşmalar nəzərə alınmaqla bələdiyyə səviyyəsində dövlət hakimiyyəti və yerli özünüidarə orqanları arasında qarşılıqlı fəaliyyətin effektiv tənzimlənməsini təmin edən konstitusion-hüquqi konstruksiyanın yaradılması problemlərinin yeni həlli ilə ifadə olunur. Bu həllin gerçəkləşdirilməsi üçün 1999-2003-cü illərdə həyata keçirilmiş sürətli normayaradıcılıq prosesindən sonrakı mərhələdə yaranmış

qeyri-müəyyən vəziyyətin aradan qaldırılması məqsədilə "Bələdiyyə hüququ" elmində ilk dəfə olaraq yerli özünüidarənin standartlaşdırılması və inkişafının yol xəritəsinin əsaslandırılması problemləri araşdırılır.

Yerli özünüidarənin təşkilində dövlət hakimiyyəti orqanlarının və yerli özünüidarə orqanlarının qarşılıqlı münasibətlərinin konstitusion-hüquqi tənzimlənməsi problemlərinin yeni həlli aşağıdakı elmi-nəzəri və praktiki əhəmiyyətli müddəalarla ifadə olunmuşdur:

1. "Yerli özünüidarə haqqında" Avropa Xartiyası ilə ifadə olunan yerli özünüidarə ideologiyası inzibati ərazidə əhalinin həyat fəaliyyətinin təmin edilməsi məqsədilə vətəndaşların ictimai işlərin müəyyən hissəsini nizama salmaq və idarə etmək hüquqlarının həyata keçirilməsinin mühüm şərtlərini müəyyən edən ideyalar, biliklər və prinsiplərdir.

Qərbi Avropa məkanında yaranan yerli özünüidarə ideologiyasının realizə edilməsinin ilkin şərtlərinin autentik interpretasiya metodu ilə öyrənilməsi nəticəsində:

a) Postsovet respublikalarının, o cümlədən Azərbaycan Respublikası əhalisinin yerli özünüidarə hüququnun tətbiqinə hazır olmadığını;

b) Xartiyanın Azərbaycan redaksiyasında istifadə olunan bir sıra terminlərin ingilis redaksiyasında tətbiq olunan texnologiyaya uyğun olmadığını, xalq hakimiyyətinin dövlət hakimiyyəti orqanları və yerli özünüidarə orqanları vasitəsilə həyata keçirilməsini ifadə edən təşkilati-hüquqi formalarının Azərbaycan Respublikası Konstitusiyasının "Xalqın suverenliyi" adlanan 2-ci maddəsində birbaşa təsbit edilmədiyini;

c) Bələdiyyə hüququnun problemlərinə həsr edilmiş bəzi tədqiqat işlərində yerli özünüidarənin "əhalinin özünün özünə tabe olması və özünü idarə etməsi", "əhalinin özünütəyinetmə hüququ", "xalqın bir qrupunun öz milli dövlətini yaratmaq hüququ", "sosial-iqtisadi problemlərin özünüidarənin "görünməz əli" ilə idarə edilməsi" kimi müddəaların utopiya xarakteri daşıdığını təsdiq edir.

2. Yerli özünüidarə haqqında Avropa Xartiyasının preambulasında göstərilən ideалların və prinsiplərin, o cümlədən sülhün qorunması naminə Avropa Şurasının üzvləri arasında sıx birliyə nail olunması və bu birliyin idarəetmə sahəsində sazişlərlə təmin olunmasına dair konstruksiyaları nəzərə alaraq "Yerli özünüidarə haqqında" Avropa Xartiyasını imzalamış, yerli özünüidarə prinsipini özünün Konstitusiyasında təsdiq etmiş, lakin sonradan başqa dövlətin suverenliyi, ərazi toxunulmazlığı, yaxud siyasi müstəqilliyi əleyhinə təcavüz etmiş dövlətlə Xartiya denons edilir"

məzmunda müddəanın Avropa Xartiyasının 17-ci maddəsinə əlavə edilməsi təklif olunur.

3. Yerli özünüidarə sisteminin legitimliyi Azərbaycan Respublikasının yerli özünüidarə haqqında qanunvericiliyinin Avropa Xartiyasının əsas prinsiplərinə və tələblərinə, bələdiyyələrin fəaliyyətinin təşkilinin isə milli qanunvericiliyin normalarına və tələblərinə institusional uyğunlaşması vəziyyətindən asılıdır.

4. Regionların sosial-iqtisadi inkişafına dair strateji vəzifələrin icrasına görə dövlətin məsuliyyətinin yerli səviyyədə dövlət hakimiyyəti orqanları ilə yerli özünüidarə orqanları arasında qarşılıqlı əlaqələrin həyata keçirilməsinin ən zəruri şərti qismində tanınması yerli özünüidarənin təşkilinin subsidiarlıq prinsipi əsasında təmin edilir.

5. Tədqiqat Azərbaycan Respublikasının milli qanunvericiliyinin ölkənin inzibati ərazi bölgüsünə uyğun yerli özünüidarənin ərazi əsaslarının müəyyən edilməsi, bələdiyyələrə seçkilərin keçirilməsi, bələdiyyə üzvlərinin hüquq və vəzifələrinin qanunla təsdiq edilməsi, yerli özünüidarənin seçkili və icra orqanlarının səlahiyyətlərinin fərqləndirilməsi, bələdiyyə məhəllə komitələrinin statusunun təsdiq edilməsi, vətəndaşların yığıncaqlarının keçirilməsi, əhali tərəfindən bələdiyyə aktları yaratmaq təşəbbüsünün həyata keçirilməsi, yerli özünüidarənin digər təşkilati-hüquqi formalarına dair ümumi müddəaları ilə yerli özünüidarənin təşkilinin beynəlxalq-hüquqi formaları arasında ciddi fərqlərin olmadığını təsdiq edir.

6. Yerli özünüidarə sisteminin yaradılması və fəaliyyətinin təşkili ilə bağlı problemlərin beynəlxalq nəzəri-hüquqi yanaşmalar nəzərə alınmaqla konstitusion-hüquqi qiymətləndirilməsi yerli özünüidarəetmə nəzəriyyəsinin müasir inkişafı mərhələsində tənzimedici mexanizmlərin və metodların sintezi yolu ilə yerli özünüidarəetmənin muxtariyyətliyinin saxlanılması, hüquq və maliyyə sferalarında mərkəzi nəzarətin genişləndirilməsi, dövlət hakimiyyəti orqanları ilə yerli özünüidarə orqanları arasında əlaqələrdə rəqəmsal idarəetmə texnologiyalarından istifadənin təşkili ilə bağlı məsələlərin birmənalı surətdə həll edilməsinin mümkünlüyünü təsdiq edir.

7. Yerli özünüidarənin təşkilinin konstitusion-hüquqi meyarlar üzrə qiymətləndirilməsi indiki zamanda yerli özünüidarəetmənin bütün növlərinin və prosedurlarının həyata keçirilməsində xarici təcrübədən kifayət qədər istifadə edilmədiyini, yerli əhəmiyyətli məsələlərin həllində ictimaiyyətin rolunun zəif olduğunu və yerli hakimiyyət islahatının

aparılması kontekstində yerli özünüidarəetmənin bütöv konsepsiyasının realizə edilmədiyini təsdiq edir.

8. Yerli özünüidarənin konstitusion-hüquqi əsaslarının "Yerli özünüidarə haqqında" Avropa Xartiyasının prinsiplərinə uyğunlaşdırılması vəziyyətinin qiymətləndirilməsi yerli hakimiyyətin əks-mərkəzləşmə prinsipi əsasında qurulması, bələdiyyələrin maliyyə potensialının yüksəldilməsi, yerli sakinlərin bələdiyyə seçkilərində iştirakının aktivləşdirilməsi, idarəetmədə bürokratik maneələrin azaldılması, yerli əhəmiyyətli məsələlərin həllində ictimaiyyətin iştirakının təmin edilməsi ilə bağlı problemlərin institusional tədbirlərin həyata keçirilməsi qaydasında aradan qaldırılmasının zəruriliyini ortaya çıxarır.

9. 1999-2025-ci illərdə Azərbaycan Respublikasında yaradılmış yerli özünüidarə sisteminin nəzəri-hüquqi əsaslarının və hüquqi meyarlara uyğunluq səviyyəsinin qiymətləndirilməsi yerli özünüidarənin faktiki mövcud olduğu və olmalı olduğu vəziyyətlər arasındakı ziddiyyətlərin həllinin əsaslı yerli hakimiyyət islahatlarının aparılmasından asılı olduğunu təsdiq edir.

10. Azərbaycan Respublikasında yerli özünüidarənin təşkili prosesində dövlət hakimiyyəti orqanları və yerli özünüidarə orqanlarının qarşılıqlı münasibətlərinin tənzimlənməsi ilə bağlı olan problem bələdiyyələrin mülkiyyət hüququnun təmin edilməsi, yerli hakimiyyət səlahiyyətlərinin yerli icra hakimiyyətlərinə və bələdiyyələrə həvalə edildiyi yerli özünüidarədə paralelliyin aradan qaldırılması ilə əlaqədardır. İnzibati ərazi vahidlərində yerli hakimiyyətin iki orqana həvalə edilməsi, yerli büdcənin iki orqan arasında bölüşdürülməsi yaşayış məntəqəsinin idarə olunması üzrə xərclərin ifrat dərəcədə çoxalması ilə nəticələnir. Bu problemlərin həll edilməsi məqsədilə:

a) "Bələdiyyə mülkiyyətinə əmlakın verilməsi haqqında" Azərbaycan Respublikası Qanununun ( 7 dekabr 1999-cu il) icrasının təmin edilməsi;

b) dövlət hakimiyyəti orqanlarının və yerli özünüidarə orqanlarının səlahiyyət sahələrinin fərqləndirilməsi probleminin həll edilməsi üçün beynəlxalq hüquqi yanaşmaların nəticələri nəzərə alınmaqla yerlərdə dövləti təmsil edən dövlət hakimiyyəti orqanının statusunun qanunla təsdiq edilməsi və yerli hakimiyyət islahatı çərçivəsində yerli əhəmiyyətli məsələlərin həlli üzrə səlahiyyətlərin bələdiyyələrə həvalə edilməsinə dair təkliflər əsaslandırılmışdır.

11. Yerli özünüidarənin həyata keçirilməsində dövlət hakimiyyəti orqanlarının yerli özünüidarə orqanları ilə qarşılıqlı fəaliyyətinin tənzimlənməsi konsepsiyasına uyğun olaraq aşağıdakı institusional tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur:

- yerli əhəmiyyətli məsələlərin həlli sahəsində funksiyaların və səlahiyyətlərin subsidiarlıq, kollegiallıq və şəffaflıq prinsipləri əsasında dövlət hakimiyyəti və yerli özünüidarə orqanları arasında bölgüsünün təmin edilməsi;
- hakimiyyətin mərkəzsizləşdirilməsi kontekstində bələdiyyələrin siyasi-iqtisadi muxtariyyətliyinin təmin edilməsi;
- yerli özünüidarənin təşkili konsepsiyasının yaradılmasında Almaniyanın, Böyük Britaniyanın və Fransanın bələdiyyə icmalarının təşkili təcrübəsindən istifadə edilməsi;
- maliyyə cəhətdən zəif bələdiyyələrə ünvanlı dövlət yardımının göstərilməsi barədə müddəanın qanunvericiliklə təsbit edilməsi;
- yerli hakimiyyət islahatı çərçivəsində regional dövlət hakimiyyəti orqanının yaradılması və onun statusunun qanunla təsdiq edilməsi;
- yerli özünüidarə orqanlarının vəzifə və səlahiyyətlərinin əhatə dairəsinin genişləndirilməsi, dövlət-cəmiyyət-bələdiyyə münasibətlərində həmrəyliyin təmin edilməsi, yerli özünüidarə orqanlarına əlavə dövlət səlahiyyətlərinin verilməsi və s.

12. Azərbaycan Respublikasında yerli özünüidarənin inkişafı prosesində yaranan maneələrin konstitusion-hüquqi qiymətləndirilməsi problemlərinin tədqiqi Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresinin tövsiyələrində qeyd edilən iradların məntiqi təhlilinə əsaslanır.

Yerli özünüidarə sisiteminin inkişafını ləngidən maneələri aşağıdakı qruplar üzrə təsnifləşdirmək mümkündür:

A. "Yerli özünüidarə haqqında" Avropa Xartiyasının əhalinin ictimai şüuruna təsirinin zəifliyinin yerli özünüidarənin təşkilində doğurduğu qeyri-müəyyən vəziyyət, hakimiyyətin əks-mərkəzləşməsi islahatlarının konseptual əsaslarının müəyyən edilməməsi.

B. Yerli özünüidarə orqanlarının mülkiyyət hüququnun təmin edilməməsi, bələdiyyə mülkiyyətinə əmlakın verilməsi məsələsinin 2000-2025-ci illərdə həll edilməməsi.

C. Yerli hakimiyyət səlahiyyətlərinin iki orqana həvalə edilməsi, yerli əhəmiyyətli məsələlərin həlli üzrə bələdiyyələrin və yerli icra hakimiyyətlərinin səlahiyyətlərində paralelliyin olması və bələdiyyələrin

icra hakimiyyətindən asılılığı, bələdiyyə qərarlarının planlaşdırılması və qəbulu prosesində bələdiyyə assosiasiyaları və əlaqələndirmə şuraları ilə məsləhətləşmələrin aprılmaması, paytaxt şəhərinin statusunun və özünüidarə hüququnun qanunla təsdiq edilməməsi.

Ç. Respublikanın iqtisadiyyatında dövlət əmlakının bələdiyyələrə verilməsi ilə əlaqədar struktur dəyişikliklərin Strateji Yol Xəritəsində proqnozlaşdırılmaması və bələdiyyələrin Yol Xəritəsinin hədəflərinin həyata keçirilməsində rolunun inkar olunması.

D. Azərbaycan Respublikasının Sosial İqtisadi İnkişaf Strategiyası və sosial-iqtisadi inkişafına dair dövlət sənədləri (proqramları) ilə qarşıya qoyulan vəzifələrin icrasında bələdiyyələrin iştirakının nəzərdə tutulmaması.

E. Yerli özünüidarənin inkişafını ləngidən xarici mənşəli amillər qismində yerli özünüidarənin iqtisadi əsaslarını, bələdiyyə əmlakının təsnifatını və yaradılması qaydasını təsbit edən normaların Avropa Xartiyasında olmaması, bələdiyyə normativ aktlarının planlaşdırılması və qəbulu prosesində məsləhət xidməti göstərən orqanın statusunun, paytaxt şəhərinin statusunun və özünüidarə hüququnun Avropa Xartiyasında müəyyənləşdirilməməsi etiraf edilməlidir.

13. "Standartlaşdırma haqqında" Azərbaycan Respublikasının Qanununun (17 may 2019-cu il) idarəetmə sahəsinə dair tələbləri nəzərə alınmaqla bələdiyyə hüququnda ilk dəfə olaraq Avropa Xartiyasının prinsipləri və normaları əsasında yerli özünüidarənin standartlaşdırılması probleminin həlli verilir və bu həllin konseptual əsaslarının ifadə olunması üçün elmi leksikona "standartın məqsədi", "standartın tətbiqi sahəsi", "standart əsaslı anlayışların tərifləri", "standartın mahiyyətinin təsviri", "informasiyanın müəyyənliyi", "standartın qüvvəyə minməsinin başlanğıc şərtləri" anlayışları daxil edilir. Yerli özünüidarəetmənin standartlaşdırılması probleminin ilk həlli aşağıdakı müddəalarla ifadə olunur:

- yerli özünüidarənin İSO 9000 və İSO 9001-in tələblərinə uyğun olaraq standartlaşdırılması Avropa Yerli Özünüidarə Xartiyasının və üzv-dövlətlərin milli hüquq normaları arasındakı fərqlərin aradan qaldırılması yolu ilə bələdiyyələrin fəaliyyətini eyni formada və məzmunda tənzimləyən modelin yaradılmasını və tətbiqini nəzərdə tutur;
- İSO 9001: 2015-in normaları əsasında dissertasiya işində tərtib edilmiş "Bələdiyyə xidmətləri üzrə keyfiyyəti idarəetmə" standartının

nümunəvi sənədi bələdiyyələrin səlahiyyət sahələrinin ayrı-ayrılıqda standartlaşdırılması üçün normativ baza kimi istifadə edilə bilər;

- bələdiyyələrin iqtisadi muxtariyyətliyinin təsdiq edilməsi, yerli özünüidarənin maddi-texniki bazasının yaradılması və mülkiyyət hüququnun təmin edilməsi ilə bağlı münasibətləri tənzimləyən normaların Avropa Xartiyası ilə təsbit edilməməsi bələdiyyələrin iqtisadi fəaliyyətinin standartlaşmasında ciddi maneələr yaradır.

14. Demokratiya və hakimiyyətin əks-mərkəzləşməsi prinsipləri əsasında yerli hakimiyyətin yenidən qurulması və Azərbaycan Respublikasının yerli özünüidarə sisteminin inkişafının Yol Xəritəsi yerli özünüidarənin inkişafını ləngidən maneələrin aradan qaldırılmasını, onun yaxın və orta müddətli inkişafının perspektivlərini və prioritetlərini əks etdirən elmi konstruksiyadır. Forsayt metodologiyasına əsaslanan Yol Xəritəsi yerli özünüidarənin təşkili və həyata keçirilməsi sahəsində mövcud vəziyyətin qiymətləndirilməsi; onun inkişaf istiqamətlərinin əsaslandırılması; yerli hakimiyyətin və səlahiyyətlərin yerli icra hakimiyyəti ilə bələdiyyələrin arasında bölgüsü ilə bağlı yaranmış qeyri-müəyyən vəziyyətin aradan qaldırılması; yerli özünüidarə səviyyələrinin fərqləndirilməsi; vətəndaşların yerli özünüidarəetmədə iştirakının təmin edilməsi; rayonlarda, şəhərlərdə və paytaxt şəhərində yerli özünüidarənin yenidən qurulması və yol xəritəsinin icrasının qiymətləndirilməsi məsələlərinin həllini əhatə edir. Yerli özünüidarənin yenidən qurulması və bələdiyyə səviyyəsində dövlət hakimiyyəti orqanlarının yerli özünüidarə orqanları ilə qarşılıqlı fəaliyyətinin tənzimlənləsi probleminin Yol Xəritəsinin köməyi ilə ilk həlli öz ifadəsini aşağıdakı müddəalarda tapmışdır:

A. Azərbaycan Respublikasında yerli özünüidarə sisteminin yenidən qurulması istiqamətində institusional tədbirlərin iki mərhələdə həyata keçirilməsi nəzərdə tutulmuşdur. Birinci mərhələdə pilot layihəsi ilə müəyyən edilmiş sınaq müddətində Konstitusiya və qanunlarla nəzərdə tutulmuş mülkiyyət hüquqları, bütün inzibati səlahiyyətlər və maliyyə resursları ilə təmin olunmuş bir neçə bələdiyyənin sosial-iqtisadi inkişafı, əhalinin sosial müdafiəsi, sağlamlığın qorunması, sanitar-epidemioloji şəraitin yaxşılaşdırılması, mənzil-kommunal təsərrüfatı və abadlaşdırma, nəqliyyat, rabitə xidmətləri, təhsil, mədəniyyət və sair sahələr üzrə inzibati idarəçiliyi həyata keçirmək qabiliyyəti qiymətləndirilir. İkinci mərhələdə dövlət icra hakimiyyəti orqanının yerli səviyyədə fəaliyyətinin əsaslı surətdə

yenidən qurulması, iqtisadi rayonlar üzrə dövlət hakimiyyəti orqanlarının yaradılması və onların statusunun müəyyənləşdirilməsi, yerli özünüidarənin ərazi cəhətdən yenidən təşkilinin rəsmi və yol xəritəsi ilə tənzimlənən ssenarilərinin qiymətləndirilməsi, bələdiyyələrin sayının optimallaşdırılması, yerli özünüidarənin rayon və şəhər səviyyələrində mərkəzləşdirilməsi, paytaxt şəhərinin bələdiyyə idarəetməsinin yenidən təşkili, bələdiyyələrin mülkiyyət hüquqlarının bərpa olunması, yerli hakimiyyət səlahiyyətlərinin yerli özünüidarə orqanlarına həvalə edilməsi, bələdiyyələrin maliyyə resurslarının hakimiyyət səlahiyyətləri ilə balanslaşdırılması məsələlərinin həlli nəzərdə tutulmuşdur.

B. Yaşayış məntəqələrində yerli özünüidarənin təşkili sisteminin təkmilləşdirilməsinin aşağıdakı istiqamətlərdə həyata keçirilməsi nəzərdə tutulmuşdur:

- yerli özünüidarənin rayon və şəhər səviyyəsində mərkəzləşdirilməsi ssenarisinə uyğun olaraq rayon bələdiyyəsinin regional dövlət hakimiyyəti orqanı və onun ərazi vahidləri (şəhər, qəsəbə, kənd) üzrə nümayəndəlikləri və ərazidə yerləşən hüquqi şəxslərlə qarşılıqlı əlaqələri qanunvericiliklə tənzimlənməlidir;

- rayon mərkəzi statusuna malik olan respublika tabeli şəhərlərdə yerli özünüidarənin iki səviyyədə: şəhər və rayon üzrə ayrılıqda, yerdə qalan rayonlarda isə yerli özünüidarənin bir səviyyədə: rayon üzrə təşkil edilməsi nəzərdə tutulur.

- paytaxt şəhərinin yerli özünüidarə sisteminin yenidən təşkili prosesində "Paytaxt şəhəri haqqında" Azərbaycan Respublikası Qanununun qəbul edilməsi, paytaxtın mərkəzləşdirilmiş qanunverici (bələdiyyə şurası) və icraedici (bələdiyyə adminstrasiyası) orqanlarının birbaşa səsvermə əsasında yaradılması, paytaxtın mərkəzi yerli özünüidarə orqanları ilə şəhərdaxili rayonların yerli özünüidarə orqanları arasında səlahiyyət bölgüsünün qanunvericiliklə tənzimlənməsi, paytaxt şəhərinin yerli gəlirlərinin və dövlət büdcəsindən transferlərin iki səviyyəli bölgüsü və məqsədli təyinatı üzrə istifadəsi ilə bağlı məsələlər həll edilir.

C. İqtisadi rayonun ərazisində təsis edilən dövlət hakimiyyəti orqanının bölgənin digər ərazi vahidləri (rayon, şəhər, şəhər rayonu, qəsəbə və kənd) üzrə nümayəndəlikləri ilə idarəçilik əlaqələrinin qanunvericiliklə tənzimlənməsi nəzərdə tutulur.

15. Yerli özünüidarənin gələcək inkişafının konstitusion-hüquqi qiymətləndirilməsi problemlərinin tədqiqatının elmi əhəmiyyətliyi

Azərbaycanın yerli özünüidarə sisteminin Avropa Yerli Özünüidarə Xartiyasının mövqeyindən və Avropa Yerli Özünüidarə Xartiyasının Azərbaycan Respublikasının mövqeyindən təkmilləşdirilməsi istiqamətlərinin əsaslandırılması ilə müəyyən edilir. Azərbaycan Respublikasında yerli özünüidarənin təşkili mexanizminin Avropa Yerli Özünüidarə Xartiyasının mövqeyindən təkmilləşdirilməsi istiqamətləri aşağıdakılardır:

- yerli özünüidarənin xalq hakimiyyətinin təşkilati-hüquqi forması kimi Azərbaycan Respublikasının Konstitusiyası ilə təsdiq edilməsi;
- dövlət hakimiyyətinin əks-mərkəzləşməsi konsepsiyasının yaradılması;
- "Bələdiyyə mülkiyyətinə əmlakın verilməsi haqqında" Azərbaycan Respublikası Qanununun (7 dekabr 1999-cu il) tətbiq edilməsi;
- Azərbaycan Respublikasında yerli özünüidarənin təşkilati-hüquqi və ərazi cəhətdən yenidən qurulması və bələdiyyələrin sayının optimallaşdırılması istiqamətində institusional tədbirlərin həyata keçirilməsi;
- yerli hakimiyyət səlahiyyətlərinin (ictimai asayişinin qorunması, dövlət təhlükəsizliyi xidmətləri, poçt, rabitə və s. istisna olmaqla) bələdiyyələrə həvalə edilməsi;
- yerli özünüidarə orqanlarının rəhbərlərinin dolayı yolla seçilməsi praktikasının ləğv edilməsi;
- əhalinin yerli özünüidarə hüququnun həyata keçirilməsi qaydalarının təkmilləşdirilməsi;
- paytaxt şəhərinin yerli özünüidarə sisteminin yenidən təşkil edilməsi;
- bələdiyyələrin maliyyə potensialının gücləndirilməsi.

Avropa Xartiyasının normalarının Azərbaycan Respublikasının mövqeyindən təkmilləşdirilməsinin zəruriliyi yerli özünüidarənin inkişafını ləngidən maneələrin müqayisəli hüquqi təhlilinin nəticələri ilə müəyyən edilir. Dissertasiyada Avropa Xartiyasının normalarının təkmilləşdirilməsi məsələsi Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresinin tövsiyələrində göstərilən iradların xarakterinin qiymətləndirilməsi ilə əlaqədar olaraq qaldırılmışdır. Belə ki, Avropa Xartiyasının normaları ilə təsdiq edilən öhdəliklər üzv-dövlətlər tərəfindən pozulursa tövsiyələrdə verilən iradlar - ədalətli və əksinə yerli özünüidarənin təşkili ilə bağlı bu və ya digər tələb Xartiya ilə nəzərdə tutulmadığı halda – yersiz hesab edilə bilər. Yersiz iradların Konqresin tövsiyələrindən çıxarılması üçün Avropa

Xartiyasının mətnində dəyişikliklərin aparılaması zəruridir. "Yerli özünüidarə haqqında" Avropa Xartiyasının Azərbaycan Respublikasının mövqeyindən aşağıdakı istiqamətlər üzrə təkmilləşdirilməsi məqsədəuyğundur:

- üzvlüyə namizəd ölkənin əhalisinin yerli özünüidarəyə hazırlıq səviyyəsinin nəzərə alınmasına dair müddəanın "Yerli özünüidarə haqqında" Avropa Xartiyasında təsbit edilməsi;

- yerli özünüidarənin iqtisadi əsaslarını, bələdiyyələrin mülkiyyət hüququnu tənzimləyən normaların "Yerli özünüidarə haqqında" Avropa Xartiyasına əlavə edilməsi;

- "Avropa Xartiyasını imzalamış və yerli özünüidarə prinsipini özünün Konstitusiyasında təsdiq etmiş, lakin sonradan başqa dövlətin suverenliyi, ərazi toxunulmazlığı, yaxud siyasi müstəqilliyi əleyhinə təcavüz etmiş dövlətlə Xartiya denons edilir" məzmunda müddəanın "Yerli özünüidarə haqqında" Avropa Xartiyasının 17-ci maddəsinə əlavə edilməsi;

- paytaxt şəhər bələdiyyəsinin statusunu və özünüidarə hüququnu tənzimləyən normaların "Yerli özünüidarə haqqında" Avropa Xartiyasına əlavə edilməsi.

16. Yol Xəritəsi ilə müəyyən edilən vəzifələrin yerinə yetirilməsi vəziyyətinin qiymətləndirilməsi məsələsi yerli özünüidarənin yenidən təşkili üzrə institusional tədbirlərin monitorinqinin aparılması qaydasında həll edilir. Yol Xəritəsinin monitorinqinin aparılması demokratiya və hakimiyyətin əks-mərkəzləşməsi, yerli hakimiyyətin yenidən qurulması, yerlərdə dövlət hakimiyyətinin yenidən təşkil edilməsi, yerli özünüidarənin ərazi və iqtisadi əsaslarının möhkəmləndirilməsi, yerli əhəmiyyətli məsələlərin həlli üzrə səlahiyyətlərin yerli özünüidarə orqanlarına həvalə edilməsi, yerli özünüidarə səviyyələrinin fərqləndirilməsi, bələdiyyələrin sayının optimallaşdırılması, yerli özünüidarə sisteminin Avropa Xartiyasının və Avropa Xartiyasının özünün Azərbaycan Respublikasının mövqeyindən təkmilləşdirilməsi ilə əlaqədar gözlənilən nəticələrin aşkara çıxarılması və təhlili üçün məlumat bazasının yaradılmasına kömək edir.

**Dissertasiya işinin nəzəri əhəmiyyəti.** Tədqiqat işində əsaslandırılmış elmi müddəalar və təkliflər Konstitusiya hüququ, Bələdiyyə hüququ, Hüquq nəzəriyyəsi, İnzibati hüquq elmlərinin əhatə dairəsini genişləndirir, yerli özünüidarənin təşkilində dövlətin rolunun yüksəldilməsinə və yerli özünüidarənin inkişafının konseptual əsaslarının yaradılmasına kömək edir.

**Tədqiqatın praktiki əhəmiyyəti.** Tədqiqat mövzusunun xüsusiyyətlərinə uyğun irəli sürülmüş elmin praktiki əhəmiyyətli təkliflərin Azərbaycan Respublikasının Konstitusiyasında, qanunlarında, "Yerli özünüidarə haqqında" Avropa Xartiyasında təsbit edilməsi, habelə bələdiyyələrin fəaliyyətinin standartlaşdırılması, yerli özünüidarənin inkişafının rəsmi Yol Xəritəsinin işlənilməsi məsələlərinin həllində istiqamətverici mənbə hesab ediləcək.

**Elmi müddəaların və təkliflərin düzgünlüyünün əsaslılığı səviyyəsi.** Dissertasiya tədqiqatının predmeti, məqsəd və vəzifələrinin öyrənilməsi yerli özünüidarə problemlərinin həllinə sistemli yanaşma ilə təmin edilir, mövzunun ayrı-ayrı aspektlərinə uyğun hüquq nəzəriyyəsi və tətbiqi, habelə rəsmi mənbələr (konstitusiya hüququ, bələdiyyə hüququ üzrə tədqiqat işləri, Avropa Şurası Yerli və Regional Hakimiyyətlər Konqresinin tövsiyələri) ilə təsdiq edilir. Dissertasiya tədqiqatının nəzəri nəticələri və təklifləri yerli özünüidarəyə dair Azərbaycan Respublikasının qanunvericiliyi və Avropa Yerli Özünüidarə Xartiyasının normalarının təhlilinin nəticələri ilə təsdiq edilir.

**Tədqiqat nəticələrinin aprobasiyası.** Dissertasiya işi Milli Aviasiya Akademiyasının "Hüquq" kafedrasında yerinə yetirilmişdir. İşin mövzusuna uyğun aparılmış tədqiqatın materialları və nəticələri "Konstitusiya hüququ", "Bələdiyyə hüququ", "İnzibati hüquq" fənləri üzrə mühazirə mətnlərinin hazırlanmasında və praktiki məşğələlələrin keçirilməsi üzrə tədris prosesində tətbiq edilmişdir. Tədqiqatın nəticələri "Konstitusiya hüququ", "Bələdiyyə hüququ" fənlərinin tədrisi üzrə proqramların hazırlanması üçün istifadə edilmişdir.

Tədqiqat nəticəsində hazırlanmış "Bələdiyyə xidmətləri üzrə keyfiyyəti idarəetmə sisteminə dair tələblər" nümunəvi sənədə dair Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Baş idarəsi tərəfindən müsbət rəylər tədim edilmişdir.

Dissertasiya tədqiqatının əsas müddəaları və nəticələri aşağıdakı beynəlxalq və respublika elmi-praktiki konfranslarının materiallarında əks olunmuşdur.

1. V International Scientific and Practical Conference «Questions. hypotheses. answers: science XXI century», December 19-20, 2023, Toronto. Canada. 129 p.
DOI https://doi.org/10.5281/zenodo.10432717

**Legal problems of internationalization of the ideology of local self-government.**

2. The modern vector of the development of science

Proceedings of the XVIII International Scientific and Practical Conference 09-10 January 2025 Philadelphia, USA 2024

DOI https://doi.org/10.5281/zenodo.14646632

**Reorganization of local government.**

3. Proceedings of VI International Scientific and Practical Conference Munich, Germany 20-22 January 2025. ISBN 978-3-954753-06-2

https://sci-conf.com.ua/vi-mizhnarodna-naukovo-praktichna-konferentsiya-scientific-research-modern-challenges-and-future-prospects-20-22-01-2025-myunhen-nimechchina-arhiv/

**Constitutional and legal aspects of assessment of the principles of local self-government.**

4. Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə və "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş "Heydər Əliyevin dövlət təhlükəsizlik siyasəti: tarixi nailiyyətlər və müasir çağırışlar" mövzusunda respublika elmi-praktiki konfrans. 07 May 2025

**Azərbaycanda bələdiyyələrin sayının optimallaşdırılmasının hüquqi aspektləri.**

5. Türk Devletleri 1. Uluslararası Hukuk Kongresi, Yeditepe Üniversitesi, 13-14 Mayıs 2025.

https://yeditepe.edu.tr/tr/etkinlik/turk-devletleri-1-uluslararasi-hukuk-kongresi

**Türk devletlerinde yerel yönetim örgütlenmesinin hukuki yönleri.**

6. Elm və təhsil tədqiqatları VIII Respublika elmi konfransı. 19 İyun 2025. DOI: https://doi.org/10.36719/2789-6919/2025/VIII

**Yerli dövlət hakimiyyətinin yenidən qurulması.**

Dissertasiya üzrə əsas nəzəri müddəalar və praktiki təkliflər Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən tövsiyə olunan jurnallarda və nəşrlərdə, internet səhifələrində işıqlandırılmışdır.

**Dissertasiya tədqiqatının strukturu** girişdən, on üç paraqrafı birləşdirən beş fəsildən, nəticədən və ədəbiyyat siyahısından ibarətdir. İstifadə edilmiş ədəbiyyat siyahısı istisna edilməklə dissertasiyanın ümumi həcmi boşluqsuz 486277 (dörd yüz səksən altı min iki yüz yetmiş yeddi) işarədən ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

**Girişdə** dissertasiya işi üçün seçilmiş mövzunun aktuallığı əsaslandırılır, onun işlənilmə dərəcəsi müəyyən edilir, tədqiqatın əsas məqsədi və vəzifələri, elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti şərh olunur, tədqiqatın nəticələrinin aprobasiyası haqqında məlumat verilir.

Dissertasiya işinin **"Yerli özünüidarənin mahiyyəti və onun həyata keçirilməsinin hüquqi aspektləri"** adlanan birinci fəsli yerli özünüidarə ideologiyasının həyata keçirilməsinin beynəlxalq-hüquqi aspektlərinin tədqiqinə həsr olunmuşdur. Burada yerli özünüidarə ideologiyasının yaranması, mahiyyəti, strukturu və realizə edilməsinin başlıca məqsədi, Qərbi Avropada təşəkkül tapan idarəetmə konsepsiyasının başqa ölkələrdə istifadə edilməsinin fərqli xüsusiyyətləri araşdırılır, yerli özünüidarəetmənin beynəlxalq-hüquqi mexanizmləri nəzərdən keçirilir.

Birinci fəslin **"Yerli özünüidarə ideologiyası və milli qanunvericiliyin yerli özünüidarəyə dair müddəaları"** adlı birinci paraqrafında göstərilir ki, yerli özünüidarə ideologiyası yerlərdə qeyri-mərkəzləşdirilmiş hakimiyyət formasının yaranmasında, bələdiyyə orqanlarının fəaliyyətini tənzimləyən beynəlxalq hüququn və milli qanunvericiliyin təkmilləşdirilməsi üçün mühüm amil hesab edilir. Yerli özünüidarə ideologiyasının konstitusion-hüquqi əhəmiyyətliyi qiymətləndirilərkən onun əhalinin bələdiyyə hüququnun tətbiqi sahəsində maarifləndirilməsi üzrə tədbirlərin yerinə yetirilməsində və yerli özünüidarənin təşkili haqqında mövcud biliklərin genişləndirilməsində mühüm rol oynaması nəzərə alınır.

Yerli özünüidarə ideologiyasının yaranmasının tarixi aspektlərinin təhlili Qabusnamənin və Tusinin "Əxlaqi-Nasir" kitablarının şəhər və kənd icmalarının fərqləndirilməsi, icmalararası münasibətlərin həyata keçirilməsinə dair müddəaları nəzərə alınmaqla Yaxın Şərq məkanında yerli özünüidarənin müasir tələblərə və çağırışlara uyğun konsepsiyanın yaradılmasının mümkünlüyünü təsdiq edir. Lakin müasir yerli özünüidarə ideologiyasının təşəkkül və təkamül xüsusiyyətləri araşdırılarkən onun əsas müddəalarının klassik Qərb nəzəriyyələrinin təsiri altında yaranmasını təsdiq edən mövqe ümumən qəbul olunmuşdur.

Dissertasiyada yerli özünüidarə ideologiyasının mahiyyətinin, məqsədinin, onun tərkibini yaradan elementlərin, habelə başqa ölkələrdə

istifadə olunmasının mümkünlüyünün əsaslandırılmasına həsr olunmuş tədqiqat işlərinin nəticələri nəzərə alınmaqla yerli özünüidarə ideologiyası yerli əhəmiyyətli məsələlərin həllini əhalinin öz üzərinə götürməsi, inzibati ərazidə yaşayan vətəndaşların sosial-iqtisadi və mədəni ehtiyaclarının ödənilməsi üçün ictimai işlərin müəyyən hissəsinin nizama salınmasını və idarə edilməsini təmin edən nəzəri biliklərin, vasitələrin və üsulların məcmusu kimi müəyyən edilmişdir. İdeologiyanın realizə edilməsində başlıca məqsəd sosial, iqtisadi və ekoloji problemlərin həllinə əhalinin yerli demokratiya institutları vasitəsilə fəal və mütəşəkkil qaydada qoşulmasının təmin etməkdən ibarətdir.

Hüquqşünasların Qərbi Avropada yaranan idarəetmə konsepsiyasının başqa ölkələrdə istifadə olunmasının qeyri-mümkünlüyü, əhalinin özünütəyinetmə üsulu, xalqın bir qrupunun ayrılmaq və öz milli dövlətini yaratmaq hüququ barədə qaldırdıqları mübahisəli məsələlər müəllif tərəfindən kritik qiymətləndirilmiş və ideologiyanın strukturunda utopiya elementinin mövcudluğu ilə əlaqələndirilmişdir.

Yerli özünüidarə ideologiyasının məzmunu öz ifadəsini beynəlxalq hüquqi qüvvəyə malik olan Avropa Yerli Özünüidarə Xartiyasında tapır. Buradan belə nəticəyə gəlmək mümkündür ki, Xartiyanı təsdiq edən üzv-dövlətlərdən hər biri özünün yerli özünüidarəyə dair qanunvericiliyini və yerli özünüidarənin təşkili üzrə fəaliyyətini Avropa Xartiyasının ideyalarına və prinsiplərinə uyğunlaşdırmaq istiqamətində institusional tədbirlər həyata keçirilməlidir. Problemin tədqiqinə kritik yanaşma Azərbaycan Respublikasının Konstitusiyasında yerli özünüidarənin xalq hakimiyyətinin təşkili formalarından biri kimi təsbit edilməsi barədə təklifi əsaslandırmağa imkan verdi.

Yerli özünüidarənin beynəlxalq münasibətlərə təsirinin gücləndirilməsi məqsədilə Xartiyanın ideal və prinsiplərini pozan dövlətlə müqavilənin denons edilməsinə dair müddəanın Avropa Xartiyasının 17-ci maddəsinə əlavə edilməsi təklif edilmişdir.

Birinci fəslin **"Yerli özünüidarənin beynəlxalq hüquqi aspektləri"** adlandırılan ikinci paraqrafında göstərilir ki, yerli özünüidarənin beynəlxalq hüquqi aspektlərinin 1. Yerli özünüidarənin həyata keçirilməsi mexanizmləri; 2. Yerli özünüidarənin həyata keçirilməsinin komponentləri; 3. Onun həyata keçirilməsi təcrübələri kimi meyarlar əsasında öyrənilməsinə üstünlük verilməlidir. Məntiqi yanaşma və müqayisəli təhlil elmi

ədəbiyyatda rast gəlinən yerli özünüidarənin formalaşmasının əsas tendesiyalarını qiymətləndiməyə, qanunvericilik aktlarında və ədəbiyyatda əks olunan yerli özünüidarənin həyata keçirilməsi mexanizminin keyfiyyət xarakteristikalarını öyrənməyə və yerli özünüidarə məsələsinə daim dəyişən və inkişaf edən bir məsələ kimi baxmağa imkan verdi.

Yerli özünüidarə institutu müstəqil Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edildikdən sonra bələdiyyə idarəetməsinə dair ayrı-ayrı müddəalar sahə qanunvericiliyində təsbit edilmişdir. 1999-cu ildə "Bələdiyyələrin statusu haqqında", "Bələdiyyə qulluğu haqqında", "Bələdiyyələrin maliyyə əsasları haqqında" qəbul edilmiş qanunlarda yerli özünüidarənin həyata keçirilməsi mexanizmlərinin yaradılmasını və tətbiqini nəzərdə tutan normalar əks olunmuşdur. Həmin mexanizmlərinin köməyi ilə respublikada yerli seçkilər keçirilmiş, bələdiyyə qurumlarının yaradılması üçün yerli sakinlər arasında sorğu təşkil olunmuş və yerli özünüidarənin əsas orqanları qismində seçkili bələdiyyə şuraları və bələdiyyə icra orqanları təsis olunmuşdur. 2000-2025-ci illərdə yerli özünüidarənin həyata keçirilməsi mexanizmləri bələdiyyə quruculuğu təcrübəsində əsasən tətbiq olunmuşdur.

Yerli özünüidarənin həyata keçirilməsinin komponentləri 1999-2003-cü illərdə qəbul edilmiş qanunlarla tənzimlənmiş, vətəndaşların iştirakı ilə növbədənkənar ictimai yığıncaqların keçirilməsi, məhəllə komitələrinin yaradılması, əhalinin yerli özünüidarənin təşkili ilə bağlı məsələlər üzrə qərarları qəbul etmək təşəbbüslərinin hüquqi əsasları yaradılmışdı.

Yerli özünüidarəetmə hüququnun həyata keçirilməsi Azərbaycan Respublikasının ratifikasiya etdiyi Avropa Xartiyasının normalarına əsaslanır. Ona görə də, bələdiyyə quruculuğu sahəsində həll edilməsi zəruri olan əsas problem Azərbaycanda həyata keçirilən yerli özünüidarənin milli qanunvericilik normalarının və praktiki fəaliyyətin Xartiyanın əsas prinsip və tələblərinə əhəmiyyətli institusional uyğunlaşmasının təmin edilməsi ilə əlaqədardır. İnstitusional uyğunlaşma çərçivəsində yerli özünüidarə sistemində subsidiarlığın reallaşdırılması istiqamətində təşkilati-hüquqi tədbirlərin, o cümlədən dövlət funksiyalarının əhəmiyyətli hissəsinin yerli özünüidarə orqanlarına tapşırılması, yerli icmaların həyat fəaliyyətinin daha effektiv tənzimlənməsi, bələdiyyələrin maliyyə fəaliyyətinin intensivləşdirilməsi ilə bağlı məsələlərin həll edilməsi zəruridir.

İkinci fəsil **"Yerli özünüidarənin təşkilinin nəzəri-hüquqi əsasları"** adlanır. Burada yerli özünüidarənin prinsiplərinin müxtəlif meyarlar əsasında fərqləndirilməsi məsələləri, yerli özünüidarənin təşkilinin konstitusiya əsasları nəzərdən keçirilir, xarici ölkələrin dövlət quruculuğu təcrübəsi nəzərə alınmaqla Azərbaycan Respublikasında yerli özünüidarənin təşkilati-hüquqi formalarının yaradılması problemləri tədqiq edilir, Azərbaycan Respublikasında yerli özünüidarənin təşkilinə nəzəri-hüquqi yanaşmaların hüquqi qiymətləndirilməsi problemlərinin həlli formalaşdırılır.

İkinci fəslin **"Yerli özünüidarənin ümumi prinsipləri"** adlanan birinci paraqrafında qeyd olunur ki, bugünədək Azərbaycanın hüquq elmində yerli özünüidarənin prinsipləri xüsusi tədqiqat mövzusu kimi öyrənilməmişdir. Prinsip anlayışının etimoloji mənasından irəli gələrək yerli özünüidarənin prinsiplərini qanunvericiliklə təsbit olunan yerli özünüidarə sisteminin təşkili və fəaliyyətini, dövlət hakimiyyəti orqanları ilə qarşılıqlı əlaqələrini müəyyən edən rəhbər ideyalar kimi nəzərdən keçirmək olar. Müasir siyasi-hüquqi doktrinada hüququn prinsipləri müəyyən bir sistem təşkil edir və yerli özünüidarənin prinsipləri də həmin sistemin təzahürü kimi xarakterizə edilməlidir. Hüquqi kontekstdə yerli özünüidarə sisteminin prinsiplərini müxtəlif meyarlar əsasında təsnifləşdirilməsi məqsədəuyğundur. Hüquqi prinsiplərin iyerarxiyasına görə yerli özünüidarənin prinsiplərini aşağıdakı qruplara bölmək olar:

1. Ümumi hüquqi prinsiplər: azadlıq, ədalətlilik, bərabərlik, hunamistlik.
2. Beynəlxalq hüquqi prinsiplər: yerli özünüidarə orqanların seçkili olması, yerli özünüidarə orqanlarının iqtisadi və maliyyə müstəqilliyi, yerli özünüidarənin formalarının müxtəlifliyi, səlahiyyətlərin maliyyə resurslarına adekvatlığı, yerli özünüidarəyə inzibati nəzarət, yerli özünüidarənin məhkəmə müdafiəsi və s.

Hüququn ümumi prinsipləri yerli özünüidarə sistemi də daxil olmaqla bütün hüquq sahələri və hüquq hadisələri üçün başlanğıc və rəhbər ideyaları müəyyən edir.[3] Yerli özünüidarənin ümumiləşdirici və inteqrativ prinsipi demokratizmdir. Bu baxımdan xalq hakimiyyəti mənasını verən

---

[3] Конституционное право: Учебник / Отв. ред. Лазарев В.В., - М.: Юрист, - 1999. - 592 с.

demokratizm prinsipi yerli özünüidarə orqanları tərəfindən xalqın mənafelərinin təmsil edilməsi, demokratik və şəffaf seçki sistemi, insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi, hər bir vətəndaşın bələdiyyə orqanlarında qulluq etmək hüququnun təmin olunması kimi səciyyələndirilir. Bununla bərabər yerli özünüidarə orqanlarının fəaliyyəti dövlət hakimiyyəti orqanları tərəfindən qiymətləndirilərkən qanunçuluq prinsipindən irəli gələn tələblərin, öhdəliklərin yerinə yetirilməsi diqqət mərkəzində saxlanılır. Yerli özünüidarənin fəaliyyətində insan və vətəndaş hüquqlarının və azadlıqlarının təminatı prinsipi xüsusi əhəmiyyətə malikdir. Vətəndaşların şəxsi, siyasi, sosial-iqtisadi və mədəni hüquq və azadlıqlarının təminatında bələdiyyələrin üzərinə müvafiq vəzifələr düşür. Yerli özünüidarə sisteminin fəaliyyətinin ən mühüm elementlərindən biri aşkarlıq prinsipidir. Yerli özünüidarənin həyata keçirilməsində aşkarlıq prinsipi əhaliyə bələdiyyələrin işi ilə tanış olmaq və onların fəaliyyətinə ictimai nəzarəti həyata keçirmək imkanı yaradır. Beləliklə, bütövlükdə ölkə üzrə yerli özünüidarə sisteminin legitimliyinin və beynəlxalq hüququn tələblərinə uyğunluğunun qiymətləndirilməsi üçün əsas meyarlar qismində yerli özünüidarədə qanunçuluq, demokratizm, vətəndaş hüquqlarının və azadlıqlarının təminatı, aşkarlıq prinsiplərinə əməl edilməsi bazis hesab edilməlidir.

İkinci fəslin **"Yerli özünüidarənin təşkilinin konstitusiya əsasları"** adlanan ikinci paraqrafı yerli özünüidarənin konstitusiya əsası haqqında məsələnin bu institutun Azərbaycan Respublikası Konstitusiyasının "Yerli özünüidarəetmə" adlanan dördüncü bölməsində təsbit edilməsi haqqında müddəanın şərhindən çıxış edir. Tədqiqat yerli özünüidarənin Konstitusiya ilə xalq hakimiyyətinin həyata keçirilməsinin təşkilati-hüquqi formalarından biri kimi zənn edildiyini və dördüncü bölmənin struktur baxımından onun heç də digər sosial-hüquqi institutlara nisbətdə az əhəmiyyətli olmasını göstərmədiyini təsdiq edir.

Konstitusiya qanunvericiliyinə müvafiq olaraq Azərbaycan Respublikası vətəndaşları yerli özünüidarə hüququnun bilavasitə - yerli seçkilər, yerli rəy sorğusu, vətəndaşların yığıncaqları və ümumi, bərabər, birbaşa seçki hüququ, gizli və şəxsi səsvermə prinsipi əsasında seçilmiş nümayəndələri – bələdiyyələr vasitəsilə həyata keçirir. Azərbaycan Respublikası vətəndaşlarının bu konstitusion hüquqları, həmçinin Əsas Qanunun 54-cü maddəsində vətəndaşların cəmiyyətin və dövlətin siyasi

həyatında iştirak hüququnu və dövlətin idarə olunmasında bilavasitə və ya nümayəndələri vasitəsilə iştirak etmək hüququnu müəyyən edən 55-ci maddəsində təsbit edilmişdir.

Azərbaycan Respublikasının Konstitusiyasında şəxsiyyətin hüquqi statusunu yaradan münasibətlərin insan hüquqlarının yeni konsepsiyasına əsaslandığı göstərilir. Əsas Qanunun 12-ci maddəsində deyilir ki, insan və vətəndaş hüquqlarının və azadlıqlarının, vətəndaşların layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir. İnsan və vətəndaş hüquqları və azadlıqlarının dissertasiyanın ikinci fəslində aparılmış təhlili nəticəsində müəyyən edilmişdir ki, beynəlxalq müqavilələrdə təsbit edilən elə bir insan hüquq və azadlığı yoxdur ki, Azərbaycan Respublikasının Konstitusiyasında ehtiva olunmasın. Konstitusiyanın yerli özünüidarəyə dair normalarının konkretləşdirilməsini təmin edən normativ hüquqi aktların Konstitusiyaya uyğunluğunun qiymətləndirilməsi yerli özünüidarənin hüquqi tənzimi sahəsində sistemliliyin təmin edilməsi, təkrarçılığın, boşluq və kolliziyaların aradan qaldırılması yolu ilə bələdiyyə məcəlləsinin qəbulunun məqsədəuyğunluğunu təsdiq edir.

Müasir siyasi-hüquqi doktrinanın mərkəzi dövlət hakimiyyəti və yerli hakimiyyət nisbətlərini müəyyən edən hüquqi konstruksiyalarla bağlı probleminin xarici ölkələrin konstitusiyalarında tənzimlənməsi vəziyyətinin öyrənilməsi mərkəzi orqanların (parlament, dövlət başçısı, hökumət), onların yerlərdəki nümayəndələri (təyin edilən qubernatorlar, prefektlər, komissarlar), habelə məhkəmələrin dövlət hakimiyyəti orqanları, yaşayış məntəqələrində təşkil edilən seçkili bələdiyyələrin yerli özünüidarə orqanları qismində tanınmasının legitimliyini təsdiq edir. Dissertasiyada dövlət idarəçiliyinin və yerli özünüidarənin əlamətlərinin fərqləndirilməsi istiqamətlərinin araşdırılması konstitusiya hüququ elmində rast gəlinən bir sıra mübahisələrin aradan qaldırılmasına kömək edir.

İkinci fəslin **"Yerli özünüidarənin təşkilati-hüquqi formaları"** adlanan üçüncü paraqrafı yerli özünüidarənin təşkilati-hüquqi formasının onun mahiyyəti ilə qırılmaz surətdə bağlı olan, qanunvericilik aktları ilə tənzimlənən yerli özünüidarənin təşkili və quruluşu qismində qəbul olunmasından çıxış edir. Müəllifin fikrincə, yerli özünüidarənin təşkilati-hüquqi forması üç aspektdə xarakterizə olunmalıdır:

1) İnzibati-ərazi vahidlərində yerli özünüidarənin təşkili formaları;

2) Azərbaycan Respublikasının vətəndaşları tərəfindən yerli özünüidarənin həyata keçirilməsi formaları;

3) yerli özünüidarənin strukturu və fəaliyyət formaları.

Azərbaycan Respublikasının inzibati-ərazi vahidlərində yerli özünüidarənin təşkili üçün xarici ölkələrdə olduğu kimi əsas meyar qismində səmərəli idarəetmə prinsipi ilə yanaşı ölkənin tarixi inkişafı və adət-ənənələri də götürülmüşdür. Müasir dövrdə Azərbaycan Respublikasının ərazi quruluşuna daxil olan 67 rayon, 11 respublika tabeli şəhər, 262 qəsəbə, 1724 kənd ərazi dairəsi və 4245 kənd ərazi vahidləri üzrə 685 bələdiyyə yaradılmışdır.[4]

Azərbaycan Respublikasının Konstitusiyasına görə yerli özünüidarənin əsas təşkilati-hüquqi forması bələdiyyələrdir. Lakin Azərbaycan Respublikasının vətəndaşları yerli özünüidarəni yalnız bələdiyyələr vasitəsilə deyil, həm də bilavasitə həyata keçirirlər. Vətəndaşların bilavasitə yerli özünüidarə formalarına: yerli seçkiləri, yerli rəy sorğusunu, vətəndaşların yığıncaqlarını aid etmək olar.

Seçki qanunvericiliyinə uyğun olaraq yerli özünüidarənin yerli seçkilər formasında həyata keçirilməsi aşağıdakı ardıcıllıqla təmin edilir. 1) seçkilərin təyin edilməsi; 2) seçki dairələrinin və seçki məntəqələrinin təşkili; 3) seçki orqanlarının təşkili; 4) bələdiyyə üzvlüyünə namizədlərin irəli sürülməsi və qeydə alınması; 5) seçkiqabağı təşviqat kompaniyası; 6) bələdiyyə seçkilərinin keçirilməsi və seçkilərin nəticələrinin müəyyən olunması.

Yerli özünüidarənin qanunvericiliklə nəzərdə tutulmuş formalarından biri vətəndaların yığıncaqlarıdır. 2024-cü ildə həyata keçirilən islahat tədbirləri nəticəsində əhalisinin sayı 3000 nəfərdən və ya ev təsərrüfatlarının sayı 1000 vahiddən az olan bələdiyyələr onlarda yaranan sosial-iqtisadi vəziyyət, tarixi və digər yerli xüsusiyyətlər nəzərə alınmaqla Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə digər bələdiyyələrlə birləşdirildi. Fikrimizcə, fakültətiv xarakterli vətəndaşların yığıncaqları məhəllə komitələri səviyyəsində keçirilməsi mümkündür. Bələdiyyələrin birləşməsi ilə bağlı məsələlərin həlli üçün vətəndaşların məcburi xarakterli yığıncaqlarının keçirilməsi "Bələdiyyələrin birgə fəaliyyəti, birləşməsi,

---

[4] "Bələdiyyələrin birgə fəaliyyəti, birləşməsi, ayrılması və ləğv edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu (05.04.2024)
[Elektron resurs]: https://president.az/az/articles/view/65516

ayrılması və ləğv edilməsi haqqında" Qanunla nəzərdə tutulur. Yerli özünüidarə səviyyəsində vətəndaşların bilavasitə iştirakının formalarından biri də əhalinin bələdiyyə aktları yaratmaq təşəbbüsüdür. "Bələdiyyələrin statusu haqqında" Qanun bələdiyyə ərazisində yaşayan vətəndaşlar tərəfindən hazır normativ aktın layihəsini bələdiyyə məclisinin müzakirəsinə təqdim edilməsinə dair normanı təsbit edir. Eyni zamanda bələdiyyə əhalisinin normayaratma təşəbbüsü hüququnun tənzimlənməsini təmin edən normanın qanunvericiliklə təsbit edilməməsi diqqətdən yayınmır.

Vətəndaşların yerli özünüidarə sistemində bilavasitə iştirakının digər forması bələdiyyə qulluğu fəaliyyətidir. "Bələdiyyə qulluğu haqqında" Qanun (30 noyabr 1999-cu il) bələdiyyə qulluğunu yerli özünüidarə orqanlarında daimi peşə fəaliyyəti kimi təsbit edir (m. 2).

Azərbaycan Respublikasının bələdiyyələrində iki əsas orqan fərqləndirilir: seçkili orqan (bələdiyyə şurası) və icra orqanı. İcra orqanı daimi fəaliyyət göstərən orqandır, seçkili orqan isə qərarverici orqan kimi vaxtaşırı fəaliyyət göstərir.

Azərbaycan Respublikası Konstitusiyasının 143-cü maddəsinə uyğun olaraq bələdiyyələr həmçinin daimi və başqa komissiyalar yarada bilərlər. Həmin komissiyaların say tərkibi, sədri, səlahiyyətləri bələdiyyənin nümayəndəli orqanı tərəfindən müəyyən edilir.

Yerli özünüidarənin təşkilati formalarından biri kimi bələdiyyələrin məhəllə komitələrinin fəaliyyəti hesab edilir. Məhəllə komitələri səlahiyyətlərinə aid olan məsələləri öz yığıncaqlarında həll edirlər və həmin məsələlərə dair adi səs çoxluğu ilə qərarlar qəbul edirlər.

Yerli özünüidarənin Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulan normalarının, Avropa Xartiyasının və xarici ölkələrin qanunvericiliyinin müvafiq normalarının müqayisəli təhlili yerli özünüidarənin təşkilati formalarının ölkələr üzrə ciddi fərqlənmədiyini təsdiq edir.

İkinci fəslin **"Azərbaycan Respublikasında yerli özünüidarənin təşkilinə nəzəri-hüquqi yanaşmaların hüquqi qiymətləndirilməsi problemləri"** adlanan dördüncü paraqrafında qeyd olunur ki, yerli özünüidarənin milli konsepsiyasının yaradılması, regional səviyyədə yerli əhalinin yerli özünüidarə hüququnun inkişafının əsas tendensiyalarının, yerli özünüidarə orqanları ilə dövlət hakimiyyəti orqanları arasında qarşılıqlı əlaqənin formalarını və mexanizmlərini təhlil etmək kimi tədqiqat

vəzifəsinin qoyulması və həllinin zəruriliyi danılmazdır. Şübhəsiz ki, yerli özünüidarənin yeni keyfiyyətinə nail olmaq yerli demokratiyanın siyasi və inzibati proseslərinin institusional əsaslarının dərk edilməsinə hüquqi yanaşmalarda əsaslı dəyişikliklər olmadan mümkün deyil. Postsovet dövründə Azərbaycan Respublikasında yerli özünüidarənin əsas xüsusiyyətlərinin müəyyən edilməsi, demokratik yerli hakimiyyət islahatlarının aparılması, dövlət hakimiyyəti orqanları ilə yerli özünüidarə orqanlarının qarşılıqlı əlaqələrinin bərabərlik prinsipi əsasında tənzimlənməsi sahəsində müsbət xarici təcrübənin və yerli özünüidarənin təşkilinə nəzəri-hüquqi yanaşmaların nəticələrinin istifadə edilməsi yolu ilə yerli özünüidarə sisteminin inkişafının konseptual əsaslarının yaradılmasına ehtiyac duyulur.

Yerli özünüidarə ilə bağlı xeyli sayda nəşrlərə baxmayaraq, cəmiyyətin siyasi sistemində və yerlərdə icmaların idarə edilməsində yerli özünüidarənin rolu zəif başa düşülən problem olaraq qalır. Bunun başlıca səbəbi kimi əhalinin yerli özünüidarə hüququnun realizə edilməsi formalarının praktiki tətbiqinin nəticəsizliyi etiraf edilməlidir. Yerli səviyyədə əsas idarəetmə orqanı qismində yerli icra hakimiyyətinin fəaliyyət göstərməsi, hakimiyyət səlahiyyətlərinin icra hakimiyyəti başçılarının əlində cəmləşdirilməsi əhalinin yerli özünüidarə orqanlarının nüfuzuna inamını sarsıdır. Müasir dövrdə Azərbaycan Respublikasında yerli özünüidarənin ərazi, maliyyə və iqtisadi əsaslarının islahatı prosesinin xarici ölkələrin analoji təcrübəsi nəzərə alınmaqla sürətləndirilməsi mümkündür.

Dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının qarşılıqlı fəaliyyətinin tənzimlənməsi metodologiyasının işlənib hazırlanması yerli özünüidarənin inkişafı konsepsiyasının mühüm istiqamətlərindən biridir. Bu problemin həllinə nəzəri-hüquqi yanaşmaların nəticəliliyi diqqəti cəlb edir. Birinci yanaşmaya görə, yerli özünüidarə dövlət və ictimai prinsiplərin simbiozudur ki, burada ölkənin bütövlükdə dövlət tərəfindən idarə edilməsi və hakimiyyətin mənbəyi kimi xalqın tanınması şübhəsizdir. Yerli özünüidarə orqanlarının və vəzifəli şəxslərin səlahiyyətləri ictimai işlərin bir hissəsinin dövlət tərəfindən həmin orqanlara həvalə edilməsinin hüquqi həlli formasıdır.[5]

---

[5] Krüger, D. Local self-governance in antiquity and in the global south: Theoretical and empirical insights from an interdisciplinary perspective / D.Krüger, C.Mohamad Klotzbach, R.Pfeilschifter, Berlin, Boston: De Gruyter. – 2023. – 674 p. [Elektron resurs]: https://doi.org/10.1515/9783110798098

İkinci yanaşmaya görə, yerli özünüidarə ictimai hüquqi institut kimi vətəndaş cəmiyyətinin əsası və demokratiya aləti kimi görünür. Burada cəmiyyətin maraqlarının həyata keçirilməsi problemləri yerli özünüidarə konsepsiyası çərçivəsində təmin edilməsinin mümkünlüyü qəbul edilir.

Yuxarıda göstərilən yanaşmaların hər birinin mövcud olmasına baxmayaraq dövlət hakimiyyəti orqanlarının və yerli özünüidarə orqanlarının qarşılıqlı əlaqələrinin konstitusion-hüquqi tənzimlənməsi probleminin həllinin zəruriliyini inkar etmək mümkün deyildir. Bu problemin həllinin nəticəliliyini təmin etmək məqsədilə dissertasiyada dövlət-bələdiyyə qarşılıqlı fəaliyyətinin prinsiplərinin təsnifatı əsaslandırılmış və onların fərqli xüsusiyyətləri göstərilmişdir.

Yerli özünüidarəetmə nəzəriyyələrinin hazırki inkişafı mərhələsində əsas məqamları birləşdirən müxtəlif yanaşmaların sintezi tendensiyası mövcuddur, o cümlədən: institusional baza, yerli özünüidarənin səlahiyyətində müəyyən muxtariyyət saxlamaqla, hüquq və maliyyə sferasında mərkəzi nəzarətin genişləndirilməsi, mərkəzlə yerli özünüidarə orqanları arasında münasibətlərdə səmərəli idarəetmə texnologiyalarından istifadənin artırılması və onların fəaliyyətinin təşkili ilə bağlı məsələlərin bütün aspektlərinin araşdırılması zəruriliyini inkar etmək mümkün deyildir.

Üçüncü fəsil **"Azərbaycan Respublikasının yerli özünüidarə sisteminin hüquqi meyarlara uyğunluq səviyyəsinin qiymətləndirilməsi problemləri"** adlanır. Burada yerli özünüidarənin formalaşması və inkişafının konstitusion-hüquqi meyarlar üzrə qiymətləndirilməsi problemləri nəzərdən keçirilir, Azərbaycan Respublikasında yerli özünüidarənin Avropa Xartiyasının prinsiplərinə uyğunluğunun qiymətləndirilməsi məsələləri tədqiq olunur.

Üçüncü fəslin **"Yerli özünüidarənin formalaşması və inkişafının konstitusion-hüquqi meyarlar üzrə qiymətləndirilməsi"** adlanan birinci paraqrafında qeyd olunur ki, Azərbaycan Respublikasında yerli özünüidarə sisteminin konstitusiya ilə möhkəmləndirilməsi dualistik nəzəriyyə əsasında həyata keçirilmişdir: yerli dövlət orqanları və bələdiyyələr (yerli

---

Gulay, V.V., Decentralisation mechanisms of local democracy political and administrative processes within contemporary Ukrainian scientific discourse. In Public administration and management: Modern scientific discussions / V.V.Gulay, N.V.Hrynoch, - p. 150–167.
[Elektron resurs]:http://baltijapublishing.lv/omp/index.php/bp/catalog/view/90/2278/4910-1

özünüidarənin nümayəndəli orqanlar). Azərbaycanın seçdiyi model yerli özünüidarənin yerli publik idarəetmənin xüsusi forması kimi başa düşülməsinə əsaslanır. Bu modelə görə, yerli icra və özünüidarə orqanlarının bir-biri üzərində heç bir səlahiyyəti yoxdur. Yerli özünüidarə orqanlarının səlahiyyətləri parlamentin qəbul etdiyi qanun əsasında tətbiq edilirsə, yerli icra hakimiyyətinin başçıları öz səlahiyyətlərini isə bilavasitə Azərbaycan Respublikasının Prezidentindən alaraq dövlət hakimiyyətini həyata keçirirlər. Buradan aydın olur ki, yerli hakimiyyətin təşkili, yerli özünüidarənin formalaşması və inkişafının konstitusion-hüquqi meyarlar əsasında tədqiqinin mühüm istiqaməti məhz, yerli idarəetmə prosesində qarşılıqlı fəaliyyət göstərən yerli icra hakimiyyətləri başçılarının və bələdiyyələrin səlahiyyətlərinin hüdudlarının müəyyənləşdirilməsi ilə əlaqədardır. Yerli icra hakimiyyətlərinin səlahiyyətləri Konstitusiya və "Yerli icra hakimiyyətləri haqqında" Əsasnamə (Azərbaycan Respublikası Prezidentinin 21 dekabr 2012-ci il tarixli Fərmanı ilə təsdiq edilmişdir) ilə təsbit edilərək bütünlükdə inzibati vahidlərin idarə olunmasını əhatə edir. Bu səlahiyyətlər icra hakimiyyətlərinin funksiyalarına tam uyğundur və hər hansı mübahisəyə səbəb olmur. Bütün mübahisələrin Əsasnamə ilə nəzərdə tutulan səlahiyyətlərin xeyli hissəsinin müvafiq hüquqi əsaslandırma verilmədən həm də yerli özünüidarə orqanlarına həvalə olunması səbəbindən yaranması etiraf edilməlidir. Bələdiyyə quruculuğu ilə bağlı mübahisəli problemin həlli üçün beynəlxalq hüququn tələblərinə uyğun olaraq yerli özünüidarə orqanlarının səlahiyyətlərinin həyata keçirilməsinin əsasında dayanan: yerli məsələlərin müstəqil və qəti həlli, onların təşkili; funksiyaların və vəzifələrin yerinə yetirilməsi zamanı qanuna riayət edilməsi; funksiyaların yerinə yetirilməsinə görə məsuliyyət; publik xidmətlərin ən əlverişli şərtlərlə göstərilməsi prinsiplərinin nəzərə alınmasının məqsədəmüvafiqliyi təsdiq olunur.[6]

Dünya praktikasında dövlət hakimiyyəti orqanları ilə yerli özünüidarəetmə orqanları arasında münasibətlərin tənzimlənməsi ilə bağlı

[6] Muminov, N., Alidjanova O., Mardonov K. Models of the development of local self-government and the experience of decentralization: An institutional approach / N.Muminov, O.Alidjanova, K.Mardonov [et al] International Journal of Psychosocial Rehabilitation, - 2020. - 24(04). 1954–1964. [Elektron resurs]: https://doi.org/10.37200/ijpr/v24i4/pr201304

istifadə edilən anqlo-sakson, kontinental, qarışıq və digər modellərin, habelə müasir hüquqtəmayüllü nəşrlərin yerli özünüidarə orqanlarının səlahiyyət qrupları haqqında müddəalarının təhlili əsasında Azərbaycan Respublikası bələdiyyələrinin malik olmalı olduğu səlahiyyətlərinin təsnifləşdirilməsi; yerli hakimiyyətlərə səlahiyyətlərin ötürülməsi formaları; yerli hakimiyyət, dövlət orqanları və yerli sakinlər arasında qarşılıqlı fəaliyyətin formaları ilə bağlı problemlərin həllinin hüquqi aspektləri tədqiq edilmişdir. Yerli özünüidarə orqanlarının qarşılıqlı əlaqə proseslərinin təhlili qarşılıqlı təsirin növləri, kanalları, məzmunu və bu prosesin səmərəliliyinin qiymətləndirilməsi kimi komponentləri və eyni zamanda özünüidarə orqanlarının yerli icmalarla birgə sosial, iqtisadi, mədəni, siyasi fəaliyyət istiqamətlərini əhatə edir.

Üçüncü fəslin "**Azərbaycan Respublikasında yerli özünüidarənin Avropa Xartiyasının prinsiplərinə uyğunluğunun qiymətləndirilməsi problemləri**" adlanan ikinci paraqrafında qeyd olunur ki, Avropa Yerli Özünüidarəetmə Xartiyası əks-mərkəzləşmə, demokratiya, muxtariyyət, maliyyə müstəqilliyi kimi prinsipləri vurğulayaraq yerli idarəetmənin təşkili üçün təməl daşı rolunu oynayır. Tədqiqat Azərbaycanın yerli özünüidarə sisteminin Avropa Xartiyası ilə müəyyən edilmiş prinsiplərə uyğunluq səviyyəsini və onun Xartiyanın meyarlarına uyğunlaşdırılması üçün nə dərəcədə dəyişdirilməli olduğunun qiymətləndirilməsindən çıxış edir. Dissertasiyada hüquqi əhəmiyyətli sənədlərin təhlilinə, yerli əhəmiyyətli məsələlərin həllinə hüquqşünas baxışlarına və ekspert mülahizələrinə əsaslanan keyfiyyətli tədqiqat metodologiyasından istifadə edilmişdir. Təhlil Azərbaycanda qanunlara riayət və institusional çeviklik dərəcəsini qiymətləndirmək üçün müvafiq hüquqi sənədlərin, hesabatların və elmi məqalələrin məlumatlarını və müddəalarını əhatə edir. Nəticələr göstərir ki, Azərbaycanda Avropa Xartiyasının ideallarının və prinsiplərinin həyata keçirilməsi, mərkəzsizləşdirmə və yerli özünüidarə orqanlarının formalaşdırılması sahəsində nəzəri-hüquqi cəhətdən müəyyən irəliləyişlər müşahidə olunmaqdadır. Bununla, belə bələdiyyə mülkiyyətinə əmlakın verilməsi, yerli hakimiyyət səlahiyyətlərinin bələdiyyələrə həvalə edilməsi, yerli özünüidarənin muxtariyyətliyi və maliyyə müstəqilliyi də daxil olmaqla yerli özünüidarənin təmin edilməsində hələ də maneələr mövcuddur. Məlumdur ki, Avropa Yerli Özünüidarə Xartiyası Avropada yerli demokratiyanın və özünüidarənin ən mühüm çərçivə normalarını təsbit edir. Xartiyanı imzalayan dövlətlər həmin normaların icra edilməsi ilə bağlı

öhdəlikləri qəbul edirlər. Azərbaycanda bələdiyyələrin səlahiyyətlərinin və mülkiyyət hüququnun təmin edilməməsi, qeyri-adekvat maliyyələşdirmə və seçki prosesindəki çatışmazlıqlar kimi problemlər qalmaqdadır. Bu problemlərin həlli Azərbaycan üçün yerli özünüidarənin Avropa Xartiyasının prinsiplərinə uyğunlaşdırılması istiqamətində institusional tədbirlərin həyata keçirilməsinin zəruriliyini təsdiq edir.

2002-ci ildə Azərbaycan tərəfindən ratifikasiya olunmuş "Yerli özünüidarə haqqında" Avropa Xartiyası yerli idarəetmə və mərkəzsizləşdirmə üçün çərçivə rolunu oynayır. Onun Azərbaycanda həyata keçirilməsi Xartiyanın prinsip və tələblərinə əhəmiyyətli institusional uyğunlaşma ilə bağlı idi.[7] Yerli səviyyədə bələdiyyə şuralarının və icra orqanlarının fəaliyyətin təşkili sahəsində institusional problemlərin qanunvericilikdə həll edilməsi yolu ilə yerli özünüidarənin Xartiyanın prinsiplərinə uyğunlaşdırılmasına nail olmaq mümkündür.[8] Tədqiqatın gedişində bələdiyyə şuralarının səlahiyyətlərinin məhdudluğu, şura üzvlərinin birbaşa seçilməməsi, bələdiyyələrin potensial resurslarının müəyyən edilməsi və qiymətləndirilməsi, bələdiyyə hesabatlarının hazırlanması və təqdim edilməsi məsələlərinin birmənalı həllinə nail olunmadığı göstərilmişdir.

Avropa Yerli Özünüidarəetmə Xartiyasının Azərbaycanda tətbiqinin təhlili əsasında Respublikada Xartiyanın tələblərinin yerinə yetirilməsi yolunda aşağıdakı çətinliklərin mövcud olması müəyyən edilmişdir: 1) məhdud muxtariyyət; 2) qeyri-adekvat maliyyələşdirmə; 3) qüsurlu seçki prosesi; 4) bürokratik maneələr; 5) zəif icma iştirakı; 6) regionların sosial-iqtisadi və ekoloji proqramlarının icrasında bələdiyyələrin iştirakının təmin edilməməsi.

Yerli muxtariyyətin gücləndirilməsi, seçki prosesinin şəffaflığının artırılması, yerli özünüidarə orqanlarının maliyyələşdirilməsinin təkmilləşdirilməsi, bürokratik maneələrin azaldılması, ictimaiyyətin

---

[7] Qaracayev, C. J. Local self-governmemt in the republic of Azerbaijan: Problems of the administrative supervision // "International Humanitarian University Herald. Jurisprudence", - 2022. (57), 24–27. [Electronic resource]: https://doi.org/10.32841/2307-1745.2022.57.5

[8] Erlingsson, G., Odalen J., Wångmar, E. How coerced municipal amalgamations thwart the values of local self-government/ G.Erlingsson, J.Odalen, E.Wångmar, Urban Affairs Review, -2020. -57(5), - p. 1226–1251. [Elektron resurs]: https://doi.org/10.1177/1078087420921458

iştirakının genişləndirilməsi və dayanıqlı inkişafın təşviqi Avropa Xartiyasına tam uyğunluğun təmin edilməsi və Azərbaycanda yerli idarəetmə qaydalarının təkmilləşdirilməsinin mühüm amilləridir.

Dördüncü fəsil **"Yerli özünüidarə orqanlarının və dövlət hakimiyyəti orqanlarının qarşılıqlı münasibətlərinin tənzimlənməsinin konstitusion-hüquqi problemləri"** adlanır. Burada yerli özünüidarə orqanlarının və dövlət hakimiyyəti orqanlarının yerli əhəmiyyətli məsələlərin həlli üzrə səlahiyyətlərinin müqayisəli-hüquqi qiymətləndirilməsi məsələləri nəzərdən keçirilir, Azərbayan Respublikasında yerli özünüidarə orqanlarının və dövlət hakimiyyəti orqanlarının qarşılıqlı fəaliyyətinin tənzimlənməsinə beynəlxalq-hüquqi yanaşmaların rolu qiymətləndirilir.

Dördüncü fəslin **"Yerli özünüidarə orqanlarının və dövlət hakimiyyəti orqanlarının yerli əhəmiyyətli məsələlərin həlli üzrə səlahiyyətlərinin müqayisəli-hüquqi qiymətləndirilməsi"** adlanan birinci paraqrafında qeyd olunur ki, dövlət hakimiyyəti orqanları ilə yerli özünüidarə orqanlarının qarşılıqlı fəaliyyətinin tənzimlənməsi konsepsiyasının əsaslandırılması qarşısında qoyulan başlıca məqsəd dövlət orqanlarının tərkibinin və vəzifələrinin müəyyən edilməsi; yerli özünüidarə orqanlarının strukturunun və vəzifələrinin təsdiq edilməsi; dövlət orqanlarının və yerli özünüidarə orqanlarının qarşılıqlı fəaliyyətinin həyata keçirilməsi şərtlərinin əsaslandırılması; dövlət hakimiyyəti orqanlarının və yerli özünüidarə orqanlarının yerli əhəmiyyətli məsələlərin həlli üzrə səlahiyyətlərinin müəyyən edilməsi; dövlət hakimiyyəti orqanlarının və yerli özünüidarə orqanlarının qarşılıqlı fəaliyyətinin təşkilati-hüquqi formalarının əsaslandırılması yolu ilə inzibati ərazidə effektiv idarəetmə qaydalarının tətbiq edilməsini təmin etməkdir. Azərbaycan Respublikasında yerli özünüidarənin həyata keçirilməsi prosesində dövlət hakimiyyəti orqanları ilə yerli özünüidarə orqanları arasında qarşılıqlı əlaqələrin tənzimlənməsi üçün bazis hüquq normaları ölkə Konstitusiyasının 13, 29, 94, 109, 142-146-cı maddələrində təsbit edilmişdir. Əsas Qanunun istinad edilən normalarının icrasını təmin edən fəaliyyətin təşkilatçıları qismində çıxış edən dövlət hakimiyyəti orqanlarına Azərbaycan Respublikasının Milli Məclisi, Azərbaycan Respublikasının Prezidenti, mərkəzi və yerli icra hakimiyyətləri orqanları aid edilir.

Yerli özünüidarə sisteminin formalaşmasında Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən bələdiyyələrə seçkilərin keçirilməsi, referendum təyin edilməsi və bələdiyyələrin statusunun müəyyən edilməsi ilə bağlı məsələlərə dair konstitusion müddəaların, qanunların və qərarların qəbul edilməsi mühüm rol oynayır. Konstitusiyanın 109-cu maddəsinə uyğun olaraq mərkəzi və yerli icra hakimiyyəti orqanları ilə yerli özünüidarə orqanlarının qarşılıqlı fəaliyyəti Azərbaycan Respublikasının Prezidentinin imzaladığı və dərc etdiyi qanunlar, fərmanlar, sərəncamlar əsasında həyata keçirilir. Dövlət hakimiyyəti orqanları ilə bələdiyyələr arasında qarşılıqlı əlaqələr qanunların və qanunqüvvəli digər aktların tətbiqi və icrasının bələdiyyələr üçün məcburiliyini müəyyən edən normanın Konstitusiyanın 149-cu maddəsi ilə təsbit edilməsi sayəsində təmin edilir. Tədqiqat Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarının, mərkəzi və yerli icra hakimiyyəti orqanlarının aktlarının icrasının bələdiyyələr üçün məcburiliyinin müəyyən edilməsi məsələsinin konstitusion-hüquqi qaydada həll edilməsinin zəruriliyini təsdiq edir.

Yerli özünüidarənin təşkili və həyata keçirilməsində yerli dövlət hakimiyyəti orqanları ilə bələdiyyələrin qarşılıqlı əlaqələrinin tənzimlənməsi ilə bağlı mübahisəli problemlərin əksəriyyəti idarəetmə səlahiyyətlərinin iki orqan arasında bölgüsündə yaranan paralelliklə əlaqədardır. "Bələdiyyələrin statusu haqqında" Qanunun (2 iyul 1999-cu il) və "Yerli icra hakimiyyətləri haqqında" Əsasnamənin (Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli Fərmanı ilə təsdiq edilmişdir) sosial-iqtisadi inkişaf sahəsində müvafiq orqanların səlahiyyətləri çərçivəsində həll edilən yerli əhəmiyyətli məsələlərə dair müddəalarının müqayisəli təhlildən belə nəticəyə gəlmək mümkündür ki, inzibati ərazilərin inkişafı ilə bağlı yerli əhəmiyyətli məsələlərin həlli həm yerli icra hakimiyyətinin, həm də bələdiyyələrin səlahiyyətlərinə aid edilmişdir ki, bu da inzibati-ərazi vahidlərinin idarə olunması sisteminin mürəkkəbləşdirilməsinə və lüzumsuz idarəetmə xərclərinin çoxalmasına səbəb olur. Dissertasiyada eyni məzmunlu və təyinatlı yerli hakimiyyət səlahiyyətlərinin "Yerli icra hakimiyyətləri haqqında" Əsasnamədə və "Bələdiyyələrin statusu haqqında" Qanunda təkrarlanması yerli özünüidarənin təşkilinin hüquqi mexanizminin yaradılmasında həll edilməsi zəruri olan ciddi problemlərin mövcudluğu etiraf edilir. Yerli və xarici ölkə mütəxəssislərinin, alimlərin tədqiqatlarının nəticələri, elektron resurslarla

işıqlandırılan məlumatlar nəzərə alınmaqla yerli özünüidarənin inkişafının ümumi konsepsiyası çərçivəsində dövlət hakimiyyəti orqanlarının, o cümlədən regional dövlət hakimiyyəti orqanlarının bələdiyyələrlə qarşılıqlı fəaliyyətinin tənzimlənməsini təmin edən hüquqi aktın qəbul edilməsinə dair təklif əsaslandırılır.

Dördüncü fəslin "**Azərbaycan Respublikasında yerli özünüidarə orqanlarının və dövlət hakimiyyəti orqanlarının qarşılıqlı fəaliyyətinin tənzimlənməsinə beynəlxalq-hüquqi yanaşmaların rolu**" adlanan ikinci paraqrafında dövlət hakimiyyəti orqanlarının və yerli özünüidarə orqanlarının qaşılıqlı münasibətlərinin tənzimlənməsi hüdudlarının müəyyənləşdirilməsinə yanaşmaları əks etdirən xarici ölkə alimlərinin tədqiqatlarına istinad edilməsinin zəruriliyi göstərilir. Dissertasiyada abstraksiya metodunun köməyi ilə hazırda Azərbaycanda dövlət hakimiyyəti və yerli özünüidarə orqanları arasında münasibətlərdə ən mühüm strateji problemin səlahiyyət və vəzifələrin müəyyənləşdirilməsi ilə bağlı olduğu vurğulanmışdır. Avropa ölkələrində olduğu kimi, Azərbaycan Respublikasında da dövlət və bələdiyyə orqanları arasında münasibətlər problemi konstitusiya hüququ çərçivəsində özünün həllini tapmalıdır. Bu, təbii olaraq, səlahiyyət bölgüsü və hökumətin iki səviyyəsi arasında əlaqənin qurulması məsələsini ortaya qoyur. Bələdiyyələrin səmərəli fəaliyyət göstərməsi dövlət orqanları ilə yerli özünüidarə orqanları arasında təşkilati əməkdaşlıq vasitəsilə mümkündür ki, bu da sonuncular haqqında ölkələrin konstitusiyalarında təsbit olunmuş müddəalar mühüm rol oynayır. [9]

Əldə edilmiş nəticələr göstərir ki, Azərbaycanda yerli özünüidarənin formalaşmasında və inkişafında regional dövlət orqanlarının yaradılması mühüm rol oynaya bilər. Regional dövlət orqanlarının yerli özünüidarə orqanları ilə qarşılıqlı əlaqəsi regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının həyata keçirilməsində bələdiyyələrin rolunun yüksəlməsinə şərait yaradacaq. Tədqiqatın nəticələrinə görə beynəlxalq miqyasda tanınmış və Avropa Yerli Özünüidarəetmə Xartiyasında təsbit olunmuş yerli özünüidarə orqanlarına müəyyən dövlət səlahiyyətlərinin verilməsi

---

[9] Siur, N. Constitutional Principles of Local Self-Government / N.Siur, H.Kuzmenko, I.Pavlichenko, [et al] *Journal of Law and Sustainable Development*, - 2023. - *11*(11). - Article - e2290. [Elektron resurs]: https://doi.org/10.55908/sdgs.v11i11.2290

institunun tətbiqi mərkəzsizləşdirməyə yönəlmiş obyektiv prosesdir ki, bu da yerli özünüidarə orqanlarına yerli əhəmiyyətli konkret funksiya və vəzifələrin icrasının həvalə edilməsini nəzərdə tutur. Yerli özünüidarəetmə orqanlarının yurisdiksiyasının subyektləri və səlahiyyətləri haqqında qanunvericilik konsepsiyasının, dövlətin və yerli dövlət hakimiyyəti orqanlarının səlahiyyət sahələrinin hüdudlarının müəyyənləşdirilməsinə yanaşmaların aydınlaşdırılmasına, habelə yerli özünüidarəetmə orqanlarının səlahiyyətlərinin konstitusiya səviyyəsində konkretləşdirilməsinə yanaşmalara ehtiyac var. İnkişaf etmiş ölkələrdə bələdiyyələrin öz hüquqlarının genişləndirilməsi uğrunda mübarizə aparmaq mümkün qədər çox məsələni müstəqil həll etmək hüququ əldə etməsi, həm də zəruri maliyyə mənbələri qazanmaq imkanının yaradılması onların hazırda böyük əksəriyyətinin daimi subsidiya rejimindən çıxmasını təmin etmək üçün mühüm əhəmiyyət kəsb edir. Əsas vəzifə bələdiyyələrin sosial münasibətlərinin geniş miqyaslı təkmilləşdirilməsi və yerli özünüidarənin ən mühüm komponentlərindən biri olan maliyyə münasibətlərinin tənzimlənməsi mexanizminin təkmilləşdirilməsi ilə bağlıdır.

Beşinci fəsil **"Yerli özünüidarənin gələcək inkişafının konstitusion-hüquqi qiymətləndirilməsi problemləri"** adlanır. Burada yerli özünüidarənin inkişafı prosesində yaranan maneələrin konstitusion-hüquqi qiymətləndirilməsi problemləri tədqiq olunur, Azərbaycan Respublikasında yerli özünüidarənin standartlaşdırılması mexanizminin konseptual əsasları nəzərdən keçirilir, yerli özünüidarənin inkişafının yol xəritəsi əsaslandırılır.

Beşinci fəslin **"Azərbaycan Respublikasında yerli özünüidarənin inkişafı prosesində yaranan maneələrin konstitusion-hüquqi qiymətləndirilməsi problemləri"** adlanan birinci paraqrafında qeyd olunur ki, yerli özünüidarənin inkişafı sahəsində dövlətin siyasəti ilə müəyyən edilən vəzifələrin həyata keçirilməsində başlıca məqsəd yerli özünüidarənin inkişafını ləngidən daxili və xarici amillərin aradan qaldırılmasını təmin edən effektiv konstitusion-hüquqi tənzimedici konstruksiyanın yaradılmasından ibarətdir. Yerli özünüidarə ideologiyasının Qərbi Avropada və postsovet respublikalarında, o cümlədən, Azərbaycanda realizə edilməsinin ilkin şərtlərinin fərqləndirilməsi postsovet respublikalarının əhalisinin yerli özünüidarə hüququnun tətbiqinə hazır olmadığını və bunun nəticəsi olaraq yerli özünüidarə ideyalarının realizəsi sahəsində ciddi maneələrin yarandığını ortaya qoyur. Azərbaycan Respublikasında yerli özünüidarənin inkişafı konsepsiyasının yaradılması üçün 1999-2025-ci

illərdə respublikada yerli özünüidarənin təşkili ilə bağlı həyata keçirilən təşkilati-hüquqi xarakterli tədbirlərin nəticələrinin qiymətləndirilməsi və Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresinin monitorinq materiallarının, qətnamənin, tövsiyələrinin və məlumatlarının nəzərə alınması mühüm əhəmiyyət kəsb edir. Bələdiyyələrin fəaliyyətinə xas olan nöqsanların aşkar edilməsi üçün Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresində 17 oktyabr 2012-ci ildə qəbul edilmiş 326 (2012) saylı Tövsiyəsində qeyd edilən iradların məntiqi təhlilinin aparılması məqsədəuyğundur. Konqresin iradlarını təhlil etməklə Azərbaycanda bələdiyyə quruculuğu haqqında faktiki məlumatlar "Yerli özünüidarə haqqında" Avropa Xartiyasının göstərişləri ilə müqayisə edilir və yol verilmiş kənarlaşmalar aşkara çıxarılır. Konqresin tövsiyəsində aşağıdakı iradlar göstərilmişdir: 1) "Bələdiyyələrin statusu haqqında" Qanunda yerli özünüidarə anlayışının qeyri-müəyyən izahı; 2) Konstitusiyanın yerli icra hakimiyyəti orqanlarına və bələdiyyələrə həvalə etdiyi özünüidarədə paralelliyin olması; 3) praktikada bələdiyyələrin yerli icra hakimiyyətlərindən asılı olması; 4) bələdiyyələrlə yerli icra hakimiyyətləri arasında səlahiyyətlərin və vəzifələrin qeyri-dəqiq bölgüsü; 5) bələdiyyələrə dövlət tərəfindən ayrılan maliyyənin aşağı səviyyədə olması və maliyyə potensialının zəifliyi; 6) bələdiyyələrin qərarlarının planlaşdırılması və qəbulu prosesində milli bələdiyyə assosiasiyalarının nümayəndələri ilə təmsil olunan bələdiyyələrlə məsləhətləşmələrin müvafiq prosedurlarının olmaması; 7) bələdiyyə qulluqçularının statusunu və səlahiyyətlərini, eləcə də onların hüquqlarını və öhdəliklərini tənzimləyən qanunvericilikdə boşluqların olması; 8) bələdiyyələrin əmlakının və dövlətdən əmlak, xüsusilə də torpaq transferlərinin zəif olması; 9) yerli özünüidarə orqanlarının öz fəaliyyətləri haqqında parlamentə hesabat verməsini nəzərdə tutan Konstitusiyanın 146.4-cü maddəsində aydınlığın olmaması; 10) milli səviyyədə bələdiyyələrin maraqlarını praktikada təmsil etməyən üç milli assosiasiyanın nümayəndələrinin yerli özünüidarəetmə sahəsində qərarların qəbul edilməsi prosesində mərkəzi hakimiyyət orqanları ilə məsləhətləşmələrin olmaması; 11) Azərbaycan paytaxtının yerli orqanların demokratik yolla seçilmiş şurası tərəfindən deyil, üzərində heç bir demokratik nəzarət olmayan və yalnız prezident tərəfindən təyin edilmiş icra hakimiyyəti tərəfindən idarə edilməsi faktı.

Yuxarıda göstərilən iradların indiki zamanda və gələcəkdə aradan qaldırılmasının Azərbaycanda yerli özünüidarənin inkişafında müsbət rol

oynamasını inkar etmək olmaz. Lakin həmin iradların ədalətli olub-olmamasının qiymətləndirilməsi vacibdir. Yerli özünüidarənin statusunun müəyyənləşdirilməsi, yerli hakimiyyət səlahiyyətlərinin yerli icra hakimiyyətlərinə və qismən bələdiyyələrə həvalə edilməsi, bələdiyyələrin yerli icra hakimiyyətlərindən asılı olması, bələdiyyələrin maliyyə potensialının zəif olması ilə bağlı olan iradların ədalətli olması dissertasiyanın birinci və ikinci fəsillərində yerli özünüidarənin təşkilinin konstitusion-hüquqi aspektlərinin tədqiqinin nəticələri ilə, bir tərəfdən isə Avropa Xartiyasının özündə müvafiq normaların təsbit edilməsi ilə təsdiq edilir. Konqresin tövsiyəsində göstərilmiş digər iradların, məsələn, yerli özünüidarənin iqtisadi əsaslarını, bələdiyyə əmlakının tərkibini və yaradılması qaydasını təsbit edən normaların Avropa Xartiyasında olmaması, bələdiyyə qərarlarının (aktlarının) planlaşdırılması və qəbulu prosesində məsləhət xidməti göstərən orqanın statusunun, paytaxt şəhərinin statusunun və özünüidarə hüququnun realizə mexanizminin Avropa Xartiyasında müəyyənləşdirilməməsi dissertasiyada həmin iradların ədalətli deyil, yersiz iradlar olması hesab edilmişdir.

Yerli özünüidarə orqanlarının fəaliyyətinin konstitusion-hüquqi qiymətləndirilməsinin nəticələri və Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresinin qətnamə və tövsiyələri nəzərə alınmaqla Azərbaycan Respublikasında yerli özünüidarə sisteminin qurulması və inkişafı prosesini ləngidən maneələrin respublikada yerli hakimiyyətin yenidən qurulması üzrə dövlət proqramının qəbul edilməsi, demokratiya və hakimiyyətin əks-mərkəzləşmiş prinsiplərinə əsaslanan yerli özünüidarə sisteminin yaradılması istiqamətində institusional islahatların nəticəsində aradan qaldırılması mümkün olacaq.

Beşinci fəslin **"Azərbaycan Respublikasında yerli özünüidarənin standartlaşdırılması problemləri"** adlanan ikinci paraqrafında qeyd olunur ki, istənilən ölkədə əhalinin yerli özünüidarə hüququnun səmərəli realizə edilməsi mexanizmlərindən biri standartlaşdırma hesab edilir. Yerli özünüidarə sahəsində 1999-2003-cü illərdə sürətli normayaradıcılıq dövrü başa çatdıqdan sonra Azərbaycan Respublikasında yaranmış qeyri-müəyyən vəziyyətin aradan qaldırılması üçün yerli idarəçilik mexanizminin təkmilləşdirilməsi istiqamətində konkret institusional tədbirlərin həyata keçirilməsi zəruridir. Yerli özünüidarənin təşkili və həyata keçirilməsi üçün nəzərdə tutulan standartlar Avropa Şurası və onun orqanları tərəfindən qəbul

edilən yerli özünüidarə haqqında Xartiya və konvensiyalarla təsdiq edilir, onların praktiki tətbiqi üzv ölkə (məsələn, Azərbaycan Respublikası) tərəfindən müvafiq qanunların qəbul edilməsi vasitəsilə həyata keçirilir, bələdiyyələrin fəaliyyətinin nizamlaşdırılmasının ümumi prinsiplərini, forma və metodlarını müəyyənləşdirən beynəlxalq hüququn çərçivə normaları əsasında realizə edilir. [10]

Yerli özünüidarənin standartlaşdırılması məsələsinin aydınlaşdırılması üçün "Standartlaşdırma haqqında" Azərbaycan Respublikası Qanununun (17 may 2019-cu il) standart anlayışının idarəetmə sisteminə tətbiq edilməsinə dair müddəasını və standartlaşdırmanın konseptual əsaslarının başlanğıc müddəaları qismində standartın məqsədi, standartın tətbiqi sferası, standart əsaslı anlayışların tərifləri, standartın mahiyyətinin təsviri, informasiyanın müəyyənliyi, standartın qüvvəyə minməsinin başlanğıc şərtlərinin nəzərə alınmasının vacibliyini qeyd etmək lazımdır. Yerli özünüidarənin təşkili və həyata keçirilməsi prosesinin tənzimlənməsi üçün tətbiq edilən standartlar "Yerli özünüidarə haqqında" Avropa Xartiyası ilə təsbit edilən prinsiplərdən, tələblərdən və normalardan ibarətdir. Dissertasiyada bələdiyyə hüququnda ilk dəfə olaraq bələdiyyə idarəetməsinin keyfiyyət standartının İSO 9001: 2015-in tələblərinə uyğun strukturu işlənilib hazırlanmışdır.

Bələdiyyələrin idarə olunması sisteminin İSO 9001: 2015 standartı əsasında tənzimlənməsi məqsədilə dissertasiyada təqdim edilən " Bələdiyyə xidmətləri üzrə keyfiyyəti idarəetmə sisteminə tələblər" adlı sənəd nümunəsi "Yerli özünüidarə haqqında" Avropa Xartiyasının, "Standartlaşdırma haqqında" Azərbaycan Respublikası Qanununun və "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanununun normalarına uyğun olaraq tərtib edilmişdir. Təqdim edilən sənəd nümunəsinin bələdiyyələrin fəaliyyətinin standartlaşdırılması ilə bağlı məsələlərin həlli üçün istifadə edilməsinin mümkünlüyü inkar olunmamalıdır. Gələcəkdə institusional islahatların gedişində bələdiyyələrin səlahiyyət sahəsi genişləndikcə, təhsil, səhiyyə, kommunal xidmətlər və digər sahələr üzrə yerli özünüidarənin standartlaşdırılması istisna təşkil etməməlidir. Dissertasiyada yerli

---

[10] Черкасов А.И. Стандарты совета Евроры в сфере местного самоуправления и проблемы их реализации: -2016. [Elektron resurs]: https://cyberleninka.ru/article/n/standarty-soveta-evropy-v-sfere-mestnogo-samoupravleniya-i-problemy-ih-realizatsii/viewer

özünüidarə sisteminin standartlaşdırılması prosesinin aşağıdakı mərhələlər üzrə fərqləndirilməsinin məqsəduyğunluğu vurğulanmışdır:

birinci mərhələ - yerli özünüidarəetmə sisteminin qurulmasının və fəaliyyətinin bazis standartlarının (Avropa Xartiyasının preambulasının çərçivə normaları əsasında) yaradılması və tətbiqi;

ikinci mərhələ - yerli özünüidarə sahəsində münasibətləri tənzimləyən beynəlxalq bələdiyyə hüququ normalarının milli səviyyədə implementasiyası;

üçüncü mərhələ - yerli özünüidarə orqanlarının yaradılması və fəaliyyətinin təşkili prosesinin standartlaşdırılması (törəmə standartların tətbiqi).

Yerli özünüidarənin standartlaşdırılmasının dissertasiyada aparılan tədqiqatından belə nəticəyə gəlmək mümkündür ki, Avropa Xartiyasının məzmunundan irəli gələn çərçivə normalarının yerli özünüidarə orqanlarının və vəzifəli şəxslərinin hüquq və vəzifələrinin hüquqi tənzimlənməsi mexanizmində müstəsna rol oynamasına baxmayaraq, idarəetmə səlahiyyətlərinin yerli özünüidarə səviyyələri üzrə fərqləndirilməsi meyarları Avropa Xartiyası ilə təsbit edilmir. Müasir dövrdə yerli özünüidarənin standartlaşdırılması qarşısında duran başlıca vəzifə yerli hakimiyyət səlahiyyətlərinin yerli icra hakimiyyətləri ilə bələdiyyələr arasında bölgüsündə paralelliyin aradan qaldırılmasına, yerli özünüidarə orqanlarına həvalə edilən səlahiyyətlərin tamlığına və müstəsnalığına nail olmaqdan ibarətdir.

Yerli özünüidarənin standartlaşdırılmasının nəticəliliyi Xartiyanın çərçivə normalarının keyfiyyət xarakteristikalarının yaxşılaşdırılması, beynəlxalq hüquq və milli hüquq normaları arasında kolliziyaların aradan qaldırılması, dövlət hakimiyyətinin əks-mərkəzləşməsi və yerli hakimiyyətin əsaslı surətdə yenidən qurulması, bələdiyyə idarəetməsinin təşkilində vətəndaşların iştirakının təmin edilməsi ilə bağlı problemlərin həllindən asılıdır.

Beşinci fəslin "**Azərbaycan Respublikasında yerli özünüidarənin inkişafının yol xəritəsi**" adlanan üçüncü paraqrafında yerli özünüidarənin təşkili və həyata keçirilməsi sahəsində mövcud olan problemlərin yerli özünüidarənin inkişafının Forsayt metodologiyasına əsaslanan Yol Xəritəsi çərçivəsində həlli mexanizmi tədqiq edilir. Burada qeyd olunur ki, Yol Xəritəsinin köməyi ilə 2000-2024-cü illərdə yaranmış vəziyyət təhlil edilir, inkişaf prosesinin güclü və zəif cəhətləri aşkar edilir, mövcud imkanlar və gözlənilən təhlükələr qiymətləndirilir, arzuolunan yerli özünüidarə

modelinin qurulması üçün hədəflər əsaslandırılır, yol xəritəsinin realizəsi prosesində problemlərin həlli və maneələrin aradan qaldırılması yolları göstərilir və yol xəritəsinin icarsının qiymətləndirilməsi meyarları və göstəriciləri müəyyənləşdirilir. Yerli özünüidarə sahəsində mövcud olan problemlər yerli özünüidarənin inkişafını ləngidən maneələrin konstitusion-hüquqi qiymətləndirilməsi nəticəsində müəyyənləşdirilmişdir. Hazırki mərhələdə dövlət səviyyəsində "Ağıllı şəhər" (Smart City) və "Ağıllı kənd" (Smart Village) konsepsiyasının hazırlanması, işğaldan azad olunmuş ərazilərdə dövlət idarəetməsinin təşkil edilməsi üçün Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin yaradılması, habelə iqtisadi rayonların yeni bölgüsünün tənzimlənməsi istiqamətində institusional tədbirlərin həyata keçirilməsi kontekstində iqtisadi rayonlarda dövləti təmsil edən hakimiyyət orqanının təsis edilməsi, onun statusunu müəyyən edən hüquqi bazanın yaradılması, yerli icra hakimiyyətlərinin fəaliyyətinə xitam verilməsi ilə bağlı məsələlər həll edilməlidir. Yerli özünüidarə sisteminin yenidən qurulması konsepsiyası çərçivəsində institusional tədbirlərin iki mərhələdə həyata keçirilməsinin məqsədəuyğunluğu vurğulanır.

Birinci mərhələdə yerli icra hakimiyyətinin fəaliyyəti dövründə respublikanın ərazisində mövcud olan iki və ya üç bələdiyyənin mülkiyyət hüququnun və yerli hakimiyyət səlahiyyətlərinin bərpa olunması şərti ilə pilot layihə çərçivəsində hüquqi, təşkilati və iqtisadi xarakterli tədbirlərin yerinə yetirilməsi planlaşdırılır. Pilot layihələrin yerinə yetirilməsinin nəticələrinin təhlili layihənin əhatə etdiyi sınaq müddətində əmlak hüququna və yerli hakimiyyət səlahiyyətlərinə malik olan 2-3 bələdiyyənin yerli səviyyədə inzibati idarəçiliyi həyata keçirmək qabiliyyəti, onların qarşılaşdıqları maneələri qiymətləndirmək və aradan qaldırılması yollarını əsaslandırmağa imkan verəcək.

Yerli hakimiyyətin yenidən təşkilinin ikinci mərhələsində yerli icra hakimiyyətlərinin fəaliyyətinə xitam verilməsi, hazırda mövcud olan bələdiyyələrin sayının azaldılması, yerli özünüidarənin ərazi cəhətdən yenidən təşkili ssenarilərinin qiymətləndirilməsi yolu ilə bələdiyyələrin optimal sayının müəyyənləşdirilməsi mümkün olacaq. Yerli icra hakimiyyəti başçısının səlahiyyətlərinin əsas hissəsi bələdiyyələrə, bir sıra digər səlahiyyətləri isə iqtisadi rayon üzrə dövlət hakimiyyəti orqanına həvalə ediləcək. 2024-cü ildə mövcud olan bələdiyyələrin sayının azaldılması üçün rəsmi ssenariyə uyğun olaraq "əhalinin sayının 3000 nəfərdən və ya ev təsərrüfatlarının sayının 1000 vahiddən az olması" bələdiyyələrin sayının

göstərilən meyara uyğun olaraq azaldılmasını tənzimləyən rəsmi qərar yerli maliyyənin təşkilində pərakəndəliyin aradan qaldırılması, dövlət büdcəsindən yerli büdcələrə transferlərin differensiallaşdırılması, transferin az və ya çox olması ilə bağlı olan sonu görünməyən mübahisələrin yaranması riskini aradan qaldıra bilmir. Orta müddətli perspektivdə (2030-cu ildən sonrakı dövr) dissertasiyada təklif edilən yerli özünüidarənin rayon və şəhər səviyyələrində mərkəzləşdirilməsi ssenarisi respublikanın bələdiyyələrinin sayının 100 vahiddən az olacağını proqnozlaşdırmağa imkan verir.

Yerli özünüidarənin rayon və şəhər səviyyəsində mərkəzləşdirilməsi ssenarisinə uyğun aparılan institusional dəyişikliklər nəticəsində yaradılan və ya yenidən təşkil edilən rayon bələdiyyəsinin inzibati strukturuna rayon ərazisində onun idarəçilik fəaliyyətini təmin edən aparat, ərazi vahidləri (rayon, şəhər, qəsəbə) üzrə nümayəndəliklər, bələdiyyənin yanında olan hüquqi şəxslər daxil edilirlər. Yerli özünüidarənin nümayəndəli orqanının (şuranın) sədri və üzvləri, habelə bələdiyyə administrasiyasının sədri və müavini əhali tərəfindən açıq səsvermə yolu ilə seçilirlər. Yerli özünüidarə orqanları ilə regional dövlət hakimiyyəti orqanı, bələdiyyələrin ərazi vahidləri üzrə nümayəndəlikləri və tabelikdə olan hüquqi şəxslərlə qarşılıqlı əlaqələri qanunvericilik normalarına uyğun olaraq tənzimlənməlidir. Yerli özünüidarənin inkişafının yol xəritəsində bələdiyyələrin qərarlarının qəbul edilməsində yerli əhalinin rəyinin nəzərə alınması, vətəndaşların yığıncaqlarının təşkil edilməsi, əhalinin bələdiyyə aktları yaratmaq təşəbbüsünün dəstəklənməsi, vətəndaşların bələdiyyə orqanlarına və onların vəzifəli şəxslərinə müraciəti üzrə qərarın qəbul edilməsi, yerli özünüidarənin həyata keçirilməsində əhalinin iştirakının digər formalarının tətbiq edilməsi istiqamətində təşkilati-hüquqi xarakterli tədbirlərin təşkili sahəsində vəzifələrin icrasına xüsusi yer verilməlidir. Dissertasiyada yol xəritəsi ilə nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi nəticəsində Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresinin tövsiyyələrində əks olunan ənənəvi iradların xeyli hissəsinin aradan qaldırılması mümkün olacaq. [11]

Şəhər bələdiyyələrinin statusuna yerli hakimiyyət islahatının gedişində edilən dəyişikliklər nəticəsində onların səlahiyyətləri artırılacaq, maliyyə-iqtisadi bazaları möhkəmləndiriləcək, bələdiyyə şurasının və

[11] Monitoring of the application of the European Charter of Local Self-Goverment in Ireland / by congress. -2023. [Elektron resurs]: https://rm.coe.int/monitoring-of-the-application-of-the-european-charter-of-local-self-go/1680acd809

administrasiyasının rəhbərlərinin birbaşa səsvermə yolu ilə seçilməsi mümkün olacaq, idarəetmə fəaliyyəti "Planlaşdır - yerinə yetir - yoxla" modeli əsasında tənzimlənəcək.

Rayon mərkəzi statusuna malik olan respublika tabeli şəhərlərdə yerli özünüidarənin şəhər və rayon üzrə ayrılıqda və inzibati mərkəzi şəhər hesab edilən rayonlarda isə yerli özünüidarənin rayon səviyyəsində təşkil edilməsi mümkün olacaq.

Yol xəritəsi paytaxt şəhəri haqqında qanunun qəbul edilməsini, paytaxt şəhərinin bələdiyyə şurasının üzvlərinin, sədrinin və administrasiyasının rəhbərlərinin birbaşa səsvermə əsasında seçilməsini, paytaxt bələdiyyəsinin aparatı ilə şəhərdaxili rayonların bələdiyyələri arasında səlahiyyət bölgüsünün aparılmasını, paytaxt bələdiyyəsinin maliyyə fəaliyyətinin səmərəliliyinin təmin edilməsini nəzərdə tutur.

Yerli özünüidarə sisteminin inkişafı üzrə yol xəritəsi ilə tənzimlənən tədbirlərin, proseslərin və icranın nəticələrinin qiymətləndirilməsi yol xəritəsinin monitorinqinin aparılması sayəsində təmin edilir. Monitorinq zamanı islahat tədbirlərinin, ssenarilərin təyinatı üzrə yerli özünüidarə sistemində mütərəqqi dəyişikliklərin yaranması ilə nəticələnməsi diqqət mərkəzində saxlanılacaq.

Nəticədə dissertasiya tədqiqatının nəticələri üzrə əsas müddəalar və təkliflər əsaslandırılmışdır.

Dissertasiya mövzusu üzrə dərc olunan elmi işlərin siyahısı:


1. **Yerli hakimiyyət orqanlarının fəaliyyətinin hüquqi tənzimlənməsi problemləri.** Milli Aviasiya Akademiyasının Elmi Məcmuəsi Cild 24, №1, 2022, DOI: 10.34826/NAA.2022.24.1.009 https://scientific-journals.naa.edu.az/api/articles/get/117
2. **Yerli özünüidarə sahəsində standartların fərqləndirilməsi və səlahiyyət sferasının tənzimlənməsində rolunun hüquqi qiymətləndirilməsi.**
   Qanun Jurnalı. № 08 (358) / 2024, ISSN 2218-9130\
   https://www.qanunjurnali.az/az/new/huseynov-sahil-zahir-oglu-yerli-ozunuidare-sahesinde-standartlarin-ferqlendirilmesi-ve-selahiyyet-sferasinin-tenzimlenmesinde-rolunun-huquqi-qiymetlendirilmesi
3. **Yerli özünüidarə ideologiyasının realizə edilməsinin ilkin şərtlərinin konstitusion-hüquqi fərqləndirilməsi problemləri.** Polis Akademiyasının Elmi Xəbərləri Elmi Hüquq Jurnalı № 1 (41), 2024, ISSN 2307-2504

https://doi.org/10.62130/ZNZG9089
4. **Azərbaycan Respublikasında yerli özünüidarənin təşkili prosesində yaranan manеələrin konstitusion-hüquqi qiymətləndirilməsi problemləri.** Milli Aviasiya Akademiyasının Elmi Məcmuəsi Cild 26, №3, 2024, DOI:10.30546/EMNAA.2024.03.009
https://scientific-journals.naa.edu.az/api/articles/get/369
5. **Yerli özünüidarə ideyasının konstitusion təbiəti və Avropa Xartiyasının "denons" problemləri.** Azərbaycan Hüquq Jurnalı №1-2024, ISSN 1810-9055
DOI: 10.61638/AZLAWJL
https://ahj.az/az/8-journal/68-2024-1.html
6. **Azərbaycan Respublikasında yerli özünüidarənin standartlaşdırılmasının konseptual əsaslarının yaradılmasının konstitusion-hüquqi aspektləri.** Dövlət İdarəçiliyi: nəzəriyyə və təcrübə Jurnalı 4(88) 2024, ISSN 2309-1347
https://legacy.dia.edu.az/arxivl%C9%99r/research/dovlet-idareciliyi-nezeriyye-ve-tecrube-jurnali
7. **Azərbaycan Respublikasının sosial-iqtisadi inkişaf proqramlarının və strategiyasının həyata keçirilməsində bələdiyyələrin rolunun hüquqi qiymətləndirilməsi problemləri.** Hüquqi Elmlər və Təhsil Jurnalı № (75) 2024,
DOI: 10.25108/2304-1730-1749.iolr.2024.75.91-99
https://www.iolr.org/wp-content/uploads/2024/07/Huseynov-S.Z.-Az%C9%99rbaycan-Respublikasinin-sosial.pdf
8. **Yerli özünüidarə sahəsində standartlaşdırmanın mübahisəli məsələləri.**
Hüquqi Elmlər və Təhsil Jurnalı № (79) 2025, UOT: 342.553.
DOI: 10.25108/2304-1730-1749.iolr.2025.79.50-55.
https://www.iolr.org/wp-content/uploads/2025/07/Huseynov-S.Z.-Yerli-ozunuidar%C9%99-sah%C9%99sind%C9%99.pdf
9. **Yerli özünüidarə sisteminin hüquqi konstruksiyasının qiymətləndirilməsi problemləri.** Polis Akademiyasının Elmi Xəbərləri. № 1 (43), 2025.
DOI: https://doi.org/10.62130/VNSS9616
https://www.pa.edu.az/upload/_PA%20jurnal%C4%B1-%201-%202025%20online.pdf

10. **Yerli özünüidarənin inkişafının yol xəritəsinin monitorinqi və icrasının nəticələrinin konstitusion-hüquqi qiymətləndirilməsi.** Polis Akademiyasının Elmi Xəbərləri. № 1 (45), 2026
11. **Yerli özünüidarə prinsiplərinin təsnifləşdirilməsinin konstitusion-hüquqi şərtləri.** Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri. № 69 -2025
12. **Yerli özünüidarənin prinsiplərinin qiymətləndirilməsinin konstitusion-hüquqi aspektləri.** Azərbaycan Vəkili. 2025-№1 (25), DOI: 10.61638/ALJL2023
13. **Dövlət hakimiyyəti orqanlarının və yerli özünüidarə orqanlarının yaşayış məntəqələrinin idarə olunması üzrə qarşılıqlı münasibətlərinin hüquqi əsasları.** Elmi Tədqiqat Beynəlxalq Elmi Jurnal. 2025 / Cild: 5 Sayı: 5 / 11-16 DOI: https://doi.org/10.36719/2789-6919/45/11-16
14. **The constitutional nature of local self-government.** Amazonia Investiga – December 29, 2023. DOI: https://doi.org/10.34069/AI/2023.72.12.20
15. **Organisation of local self-government in the Republic of Azerbaijan.** Futurity Economics&Law. December 13, 2023.https://doi.org/10.57125/FEL.2023.12.25.15
16. **Local Self-Government Bodies in the Republic of Azerbaijan: Legal Status, Tasks and Prospects.** Futurity Economics&Law. May 29, 2023. DOI: https://doi.org/10.57125/FEL.2023.06.25.02
17. **European Charter of Local Self-Government and its Implementation in Azerbaijan: Assessing Legal Compliance and Institutional Adaptation.** Path of Science. 31.03.2024 DOI: 10.22178/pos.102-12 https://pathofscience.org/index.php/ps/article/view/3046
18. **Justice and Artificial Intelligence.** Revista Jurídica Portucalense № 36 (2024): July-December. DOI: https://doi.org/10.34625/issn.2183-2705(36)2024
19. The modern vector of the development of science Proceedings of the XVIII International Scientific and Practical Conference 09-10 January 2025 Philadelphia, USA 2024

DOI https://doi.org/10.5281/zenodo.14646632
**Reorganization of local government.**

20. V International Scientific and Practical Conference «Questions. hypotheses. answers: science XXI century», December 19-20, 2023, Toronto. Canada. 129 p.
DOI https://doi.org/10.5281/zenodo.10432717
**Legal problems of internationalization of the ideology of local self-government**

21. "Zəfərdən-zəfərə, Azərbaycan!" adlı respublika elmi-praktiki konfransının materialları. Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyası. 02 Noyabr 2022
**Dövlətimizin zəfər yolu milli birlik və vəhdətdən keçir.**

22. Proceedings of VI International Scientific and Practical Conference Munich, Germany 20-22 January 2025
**Constitutional and legal aspects of assessment of the principles of local self-government.** ISBN 978-3-954753-06-2
https://sci-conf.com.ua/vi-mizhnarodna-naukovo-praktichna-konferentsiya-scientific-research-modern-challenges-and-future-prospects-20-22-01-2025-myunhen-nimechchina-arhiv/

23. **Azərbaycanda bələdiyyələrin sayının optimallaşdırılmasının hüquqi aspektləri.** Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə və "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş "Heydər Əliyevin dövlət təhlükəsizlik siyasəti: tarixi nailiyyətlər və müasir çağırışlar" mövzusunda respublika elmi-praktiki konfrans. 07.05.2025

24. Elm və Təhsil Tədqiqatları VIII Respublika Elmi Konfransı / 19 iyun 2025 / 6-9
**Yerli dövlət hakimiyyətinin yenidən qurulması.**
https://doi.org/10.36719/2789-6919/2025/VIII

25. Türk Devletleri 1. Uluslararası Hukuk Kongresi, Yeditepe Üniversitesi, 13-14 Mayıs 2025.
**Türk devletlerinde yerel yönetim örgütlenmesinin hukuki yönleri.**
https://yeditepe.edu.tr/tr/etkinlik/turk-devletleri-1-uluslararasi-hukuk-kongresi

Dissertasiyanın müdafiəsi "22" may 2026-cı il tarixində saat 11:00-da Milli Aviasiya Akademiyasının nəzdində fəaliyyət göstərən ED 2.45 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Azərbaycan Milli Aviasiya Akademiyası, AZ1045, Bakı, Binə qəsəbəsi, Mərdəkan pr., 30

Dissertasiya ilə Milli Aviasiya Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Milli Aviasiya Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat "21" aprel 2026-cı il tarixdə zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 20.04.2026
Kağızın formatı: A5 (60×90 1/16)
Həcm: 96 862 işarə
Tiraj: 100 nüsxə